

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## XİN: "Nikol Paşinyanın iddiaları tamamilə əsassız və qəbuledilməzdir"




4


# SƏS

№ 064 (6747)

14 aprel 2023-cü il.
Qiyməti 60 qəpik


## Azərbaycan-Bosniya və Herseqovina: Əməkdaşlıq üçün yeni dövr



2

# Son erməni təxribatlarında PƏRDƏARXASI MƏQAMLAR



5

## Aprel abidəsi



8

## Azərbaycan sabitlik adası - təhlükəsizlik məkanıdır



6

## Azərbaycan öz regionunda bir gücdür!




4



10

## "Azərbaycan və Qazaxıstan beynəlxalq platformalarda bir-birini müdafiə edir"

## Ad və soyadı necə dəyişmək olar?




15

# Azərbaycan-Bosniya və Herseqovina: Əməkdaşlıq üçün yeni dövr

Bu gün Azərbaycan dünyanın ən nüfuzlu və sabit inkişaf etməkdə olan ölkələri arasında öz yerini kifayət qədər möhkəmləndirib. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 19 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub. Bəli, bu gün Azərbaycan öz regionunda bir gücdür və gələcəkdə beynəlxalq arenada daha vacib amil olacaq. Xüsusi olaraq vurğulamaq lazımdır ki, iki il əvvələ qədər Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınırdı. 2020-ci ilin Vətən müharibəsində isə bunların sırasına biri də əlavə olundu: Cənubi Qafqazın qalib dövləti. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycana dünyada olan ehtiramı daha da gücləndirdi, dövlətimizin nüfuzunu daha da artırdı. Azərbaycan öz gücü ilə tarixi ədaləti bərpa edib və yeni reallıqlar yaradıb. Bu isə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Belə ki, Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Bosniya və Herseqovinanın Azərbaycanla əməkdaşlığı çox vacibdir. Həmçinin diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin səfəri layihələrin və investisiyaların artırılması üçün geniş imkanlar açır. Azərbaycan Prezidentinin Bosniya və Herseqovinaya səfəri, səfər zamanı aparılacaq müzakirələrdə iqtisadi və enerji sahəsində əməkdaşlığa xüsusi diqqət yetirilməsi, ökələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək. Qeyd edək ki, Bosniya və Herseqovinada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 13-də Sarayevo şəhərinin Musala meydanında yüksək səviyyədə rəsmi qarşılanma mərasimi keçirilib, hər iki ölkələrin Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi və Azərbaycanın və Bosniya və Herseqovinanın Dövlət himnləri səsləndi.Dövlətimizin başçısı İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Bosniya və Herseqovinanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviçə təqdim edildi. Sonra Sarayevoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç, Rəyasət Heyətinin üzvləri Jelko Komşiç və Denis Beçiroviç ilə görüşü oldu. Həmçinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç "Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzaladılar. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç Sarayevoda mətbuata bəyanatlarla çıxış ediblər.



**PREZİDENT İLHAM ƏLİYEV: "Bu gün Azərbaycan-Bosniya və Herseqovina münasibətlərinin yeni səhifəsi başlayır"**



**JELKA TSVİYANOVİÇ: "Ölkəmizdə hər hansı çətinlik baş verəndə Azərbaycan yanımızda olub"**

### PREZİDENT İLHAM ƏLİYEV: "Bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə gələcək inkişafımızın istiqamətlərini göstərir"

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə mətbuata bəyanatında bildirib ki, bu gün bizim münasibətlərimizin yeni səhifəsi başlayır: "Rəsmi səfər çərçivəsində aparılan danışıqlar yeni imkanlar açır. O cümlədən bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə gələcək inkişafımızın istiqamətlərini göstərir"."Müntəzəm olaraq siyasi və diplomatik müstəvidə məsləhətləşmələrin aparılacağını vurğulayan Azərbaycan Prezidenti qeyd edib ki, eyni zamanda, iqtisadi sahədə işlər daha məqsədyönlü şəkildə aparılacaq. "Birgə İqtisadi Komissiya haqqında qərar qəbul edilmişdir. Bu gün aparılan danışıqlar əsnasında, eyni zamanda, konkret layihələr üzrə işçi qrupunun yaradılması da razılaşdırılıb və qısa müddət ərzində bu istiqamətdə addımlar atılacaq", - deyə dövlətimizin başçısı bildirib.

"Bu gün biz geniş fikir mübadiləsi əsnasında Bosniya və Herseqovina-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı vahid mövqeyə gəlmişik. Yəni, bu əlaqələr bundan sonra yüksələn xətlə inkişaf edəcək".Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə mətbuata bəyanatında deyib. Əlaqələrimizin tarixinin də çox gözəl olduğunu vurğulayan dövlətimizin başçısı vurğulayıb: "Xüsusilə, siyasi müstəvidə aparılan məsləhətləşmələr və əlaqələr bizim münasibətlərimizi yüksək səviyyəyə qaldırmışdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi bütün məsələlərdə dəstəkləmişik və bu dəstək bu gün də hiss olunur. Xüsusilə işğal dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Bosniya və Herseqovinanın mövqeyi bizim üçün çox önəmli idi". Prezident İlham Əliyev mətbuata bəyanatında onu da vurğulayıb ki, İkinci Qarabağ müharibəsi zamanı Bosniya və Herseqovina Azərbaycanı qətiyyətli şəkildə dəstəkləmişdir: "İki il yarım bundan əvvəl Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı öz ərazi bütövlüyünü bərpa edəndə Bosniya və Herseqovina qətiyyətli şəkildə Azərbaycanı dəstəkləmişdir, bizim haqq işimizi dəstəkləmişdir. Bu, dostluq və qardaşlıq mövqeyidir, buna görə biz Sizə minnətdarıq"."Azərbaycan da öz növbəsində bütün məsələlərdə, o cümlədən Bosniya və Herseqovinanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı birmənalı şəkildə Bosniya və Herseqovinanın maraqlarını dəstəkləmişdir", - deyə dövlətimizin başçısı bildirib.

Ardı Səh. 3

# Azərbaycan-Bosniya və Herseqovina: Əməkdaşlıq üçün yeni dövr

Əvvəli Səh. 2

## AZƏRBAYCAN PREZİDENTİ: ”Strateji tərəfdaşlıq əlaqələri hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur”

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə mətbuata bəyanatında bildirib ki, strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq: ”Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan sözün əsl mənasında strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək”. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Bosniya və Herseqovinaya sərmayə qoymaqda maraqlıdır: ”Azərbaycan ilə Bosniya və Herseqovina arasında ticarət dövriyyəsinin artırılması məsələsi gündəlikdədir”.”Biz xahiş etdik ki, bizə konkret investisiya layihələri təqdim edilsin. Biz bu layihələrə baxaq, onları incələyək və qısa müddət ərzində öz cavabımızı verək. Biz ölkənizə sərmayə qoymaqda maraqlıyıq”, - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə mətbuata bəyanatında deyib: ”Bosniya və Herseqovina ilə bərpaolunan enerji sahəsində əməkdaşlıq bizim üçün çox maraqlıdır”. ”Energetika sahəsində çox geniş imkanlar var. Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddət ərzində bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir. Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq. Müvafiq göstərişlər artıq verilmişdir”,- deyən dövlət başçımız bununla bərabər, hidroenergetika, eyni zamanda, bərpaolunan digər enerji növləri üzrə birgə araşdırmaların aparılacağını da vurğulayıb: ”Əminəm ki, bu istiqamətdə də ciddi addımların atılması mümkün olacaq. Azərbaycan xarici ölkələrə milyardlarla dollar həcmində sərmayə qoyubdur və əlbəttə ki, Bosniya və Herseqovina ilə bu sahədə əməkdaşlıq bizim üçün çox maraqlıdır”. Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə mətbuata bəyanatında ölkələrimiz arasında nəqliyyat sahəsində əməkdaşlıq məsələsindən də söz açıb. Dövlətimizin başçısı mətbuata bəyanatında bu barədə bildirib: ”Nəqliyyat sahəsində əməkdaşlığın bütün istiqamətləri geniş araşdırılmalıdır. Azərbaycan Orta Dəhliz layihəsi üzrə öz ərazisində bütün lazımi infrastruktur layihələrini icra edib, onları başa çatdırıb, eyni zamanda, digər ölkələrdə nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı böyük sərmayə qoyur. Ona görə Cənubi Qafqaz və Balkan regionları arasında nəqliyyat bağlantısı da hesab edirəm ki, bütün bölgələrimizdə yaşayan xalqlar üçün faydalı ola bilər”.







## AZƏRBAYCAN PREZİDENTİ: ”Mədəniyyətlərarası dialoqun dərinləşməsi ilə bağlı birgə fəaliyyətin böyük önəmi ola bilər”

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə mətbuata bəyanatında deyib: ”Biz bu gün söhbət zamanı, həmçinin mədəniyyətlərarası dialoqun dərinləşməsi ilə bağlı fikir mübadiləsi apardıq, bizim təcrübəmizi bölüşdük. Hesab edirəm ki, bu istiqamətdə də birgə fəaliyyətin böyük önəmi ola bilər”. Həm Bosniya və Herseqovinanın, həm də Azərbaycanın çoxkonfessiyalı ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev bildirib: ”Bizim ölkələrimizdə bir çox etnik qruplar yaşayır və bu etnik qrupların sülh, əmin-amanlıq, dostluq, qardaşlıq şəraitində yaşaması sabitlik üçün əsas şərtdir. Burada da fikir mübadiləsi, təcrübə mübadiləsi, birgə fəaliyyət, o cümlədən elm, təhsil sahələrində, qeyri-hökumət təşkilatları çərçivəsində birgə əməkdaşlıq üçün çox gözəl imkanlar vardır”.

## JELKA TSVİYANOVİÇ: ”Ölkəmizdə hər hansı çətinlik baş verəndə Azərbaycan yanımızda olub”

”Biz qərara gəldik ki, bu gün artıq əməkdaşlığımızın yeni səhifəsini açaq və daha səmərəli əməkdaşlıq etməyə başlayaq”. Bunu Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç aprelin 13-də Sarayevoda Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında deyib. Azərbaycanın çətin vaxtlarda daim Bosniya və Herseqovinanın yanında olduğunu vurğulayan Jelka Tsviyanoviç bildirib: ”Bu fürsətdən istifadə edərək, cənab Prezident Əliyevə və ölkənizə 2014-cü ildə bizim ölkədə baş vermiş daşqın zamanı göstərilmiş yardıma görə minnətdarlığımı bildirirəm. Bizim xalqımız böyük çətinliklərlə üzləşmişdi və Azərbaycan o zaman bizim yanımızda oldu, daha sonra koronavirus və pandemiya dövründə də Azərbaycan bizə yardım göstərdi. Bütün bu müddət ərzində Azərbaycan bizim bir neçə şəhərimizdə mühüm lazımi infrastruktur layihələri həyata keçirdi. Banya Luka şəhərində tibbi mərkəz yaradıldı, Sarayevo şəhərində dostluq parkı salındı. Eyni zamanda, Sarayevoda tibb müəssisəsi təsis edildi. Ölkəmizdə hər hansı bir çətinlik baş verən vaxtda da Azərbaycan hər zaman bizim yanımızda olmuşdur”.

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ: ”Bu gün imzaladığımız Bəyannamə ilə biz strateji tərəfdaşa çevrilmişik”

”Bu gün imzaladığımız Bəyannamə ilə biz strateji tərəfdaşa çevrilmişik”. Bunu Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç aprelin 13-də Sarayevoda Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında deyib.”Bu Bəyannamə bizə imkan verəcək ki, daha sıx siyasi dialoq həyata keçirək, eyni zamanda, daha səmərəli iqtisadi əməkdaşlıq edək. Bunun sayəsində biz - işgüzar dairələr, dövlət qurumları həm iqtisadi mənfəət görəcəyik, eyni zamanda, təhlükəsizlik sahəsində də əməkdaşlıq başlanılacaq”, - deyə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri bildirib.

## JELKA TSVİYANOVİÇ: Azərbaycan bizim üçün çox mühüm ölkədir

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə mətbuata bəyanatında deyib: ”Azərbaycan bizim üçün çox mühüm ölkədir. Bu gün biz bunu bəyan edirik ki, bir-birimizə dost ölkəyik, həm beynəlxalq arenada bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli münasibətlərimiz də daha yüksək səviyyəyə qalxacaqdır. Çox şadam ki, biz bu məsələdə də inkişaf görürük”. Bir sözlə, bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanla Bosniya-Herseqovina arasındakı münasibətlərin yaxşı perspektivləri var və yüksək səviyyəli qarşılıqlı səfərlər əlaqələrin inkişafına töhfə verəcək. Çünki Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçin dediyi kimi: ”Azərbaycan bizim üçün çox mühüm ölkədir. Bu gün biz bunu bəyan edirik ki, bir-birimizə dost ölkəyik, həm beynəlxalq arenada bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli münasibətlərimiz də daha yüksək səviyyəyə qalxacaqdır”. Bəli, Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi: ”Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan sözün əsl mənasında strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək”. Bir sözlə, bu gün Azərbaycan və Prezident İlham Əliyev nəinki Bosniya və Herseqovina üçün, eyni zamanda, hamı üçün tamamilə sadiq tərəfdaşdır.

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan öz regionunda bir gücdür!

## Bosniya və Herseqovina KİV-ləri Prezident İlham Əliyevin bu ölkəyə səfəri ərəfəsində Azərbaycanla bağlı silsilə məqalələr yayımlayıb
















**Bosniya və Herseqovina KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə rəsmi səfəri ərəfəsində Azərbaycanla bağlı silsilə məqalələr yayımlayıb. AZƏRTAC xəbər verir ki, nüfuzlu media qurumlarında yayılan informasiyalarda Prezident İlham Əliyevin geniş tərkibli nümayəndə heyəti ilə Bosniya və Herseqovinaya səfəri iki ölkə arasında əlaqələrin daha da zənginləşməsi üçün dəyərli imkan kimi qiymətləndirilib.**

”hayat.ba” saytında yayımlanan məqalədə Bosniya və Herseqovinanın Azərbaycanla əməkdaşlıq potensialından tam istifadə etmədiyi təəssüflə qeyd olunub. Məqalədə Azərbaycanın son onilliklərdə enerji ixracı sahəsində təsirli iqtisadi artıma nail olmuş ölkə kimi dəyərləndirilib. Bildirilib ki, bu artım öz növbəsində Azərbaycanın geosiyasi imkanlarını gücləndirib. Yazıda, həmçinin Prezident İlham Əliyevin Bosniya və Herseqovinaya səfərinin hər iki ölkəyə böyük fayda gətirəcək əməkdaşlığın yeni dövrünü açacağı qeyd edilib.

”etto.ba” saytında dərc edilən məqalədə Prezident İlham Əliyevin bu səfərinin ölkələrimiz üçün mühüm əhəmiyyəti qeyd olunub. Azərbaycanın iqtisadi və siyasi yüksəlişi Bosniya və Herseqovinanın ölkəmizlə daha dərin əlaqələr qurması üçün əsas səbəblərdən biri kimi göstərilib. ”Azərbaycan sübut edir ki, ağıllı xarici siyasət hətta kiçik ölkələr üçün də manevr imkanları açır”, - deyə məqalədə vurğulanıb.

Anadolu agentliyinin Balkan versiyasında yayımlanan məqalədə Azərbaycanla Bosniya və Herseqovina arasında diplomatik münasibətlərin tarixi analiz edilib. Məqalədə bildirilib ki, Bosniya və Herseqovina Azərbaycanın sübut olunmuş dostudur və bu, dövlət qurumları tərəfindən qəbul edilmiş son dərəcə mühüm sənədlə təsdiqlənir. Məhz 2014-cü il aprelin 29-da Bosniya və Herseqovina ”Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət və dəstək haqqında” Qərar qəbul edib. Bununla da Bosniya və Herseqovina öz institutları vasitəsilə haqqın tərəfində durmağa və Azərbaycan xalqına, eləcə də hüquqi institutlarına dəstək verməyə hazır olduğunu nümayiş etdirib. Yazıda, eyni zamanda, iki ölkə arasında anlaşmanın yüksək səviyyədə olduğu və bunun qarşıdan gələn böyük layihələr üçün əla başlanğıc nöqtəsi ola biləcəyi qeyd edilib.

”Intelektualno.com”, ”Balkannews.ba” saytları da Prezident İlham Əliyevin Bosniya və Herseqovinaya səfəri ərəfəsində ölkələrimiz arasındakı əlaqələrdən, tarixi oxşarlıqlardan bəhs edən məqalə yayımlayıb. Bildirilib ki, 1990-cı illərin əvvəllərində hər iki ölkə Avropadakı siyasi dəyişikliklərin nəticəsi olan oxşar problemlərlə üzləşdi. Azərbaycan SSRİ-nin, Bosniya və Herseqovina isə Yuqoslaviyanın parçalanmasından sonra ölkənin dərin böhrandan çıxarılaraq inkişaf yoluna qədəm qoyması üçün genişmiqyaslı tədbirlər görmək məcburiyyətində qaldı. Lakin Azərbaycan bunu daha sürətlə edə bildi. Əlbəttə ki, bunun üçün əsas amillərdən biri Azərbaycanın ildən-ilə artan iqtisadi gücü oldu.

”TRT” televiziyasının Balkan versiyasında, ”Slobodnabosna.ba” və ”Politicki.ba” saytları da Bosniya və Herseqovina ilə Azərbaycan arasında əməkdaşlıq əlaqələrindən bəhs edən məqalələr yayımlayıb. Məqalələrdə Bosniya və Herseqovina ilə Azərbaycan arasında əməkdaşlığın hər iki ölkənin potensialını tam əks etdirmədiyi, daha yüksək nəticələrin əldə oluna biləcəyi vurğulanıb. Yazılarda Bosniya və Herseqovinanın Azərbaycan üçün investisiyalar baxımından geniş potensiala malik ölkə olduğu diqqətə çatdırılıb.

”Klix.ba” saytında isə Prezident İlham Əliyevin səfərinin hər iki ölkə üçün nə kimi yeniliklər gətirəcəyi barədə müsahibə yayımlanıb. Tarixçi, beynəlxalq əlaqələr üzrə professor Yahjo Muhasiloviç Bosniya və Herseqovina ilə Azərbaycan arasındakı əlaqələrdən, iki ölkə arasında əməkdaşlıqdan, enerji məsələlərindən və bu səfərin ölkələrimiz üçün açacağı imkanlardan danışıb. O bildirib ki, Azərbaycan öz regionunda bir gücdür və gələcəkdə beynəlxalq arenada daha vacib amil olacaq. Buna görə də Bosniya və Herseqovinanın Azərbaycanla əməkdaşlığı çox vacibdir. Həmçinin diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin səfəri layihələrin və investisiyaların artırılması üçün geniş imkanlar açır.

”Oslobodjenje.ba” saytında yayımlanan məqalədə də Azərbaycan Prezidentinin Bosniya və Herseqovinaya səfərindən, müzakirə oluna biləcək məsələlərdən bəhs edilib. Bildirilib ki, səfər zamanı aparılacaq müzakirələrdə iqtisadi və enerji sahəsində əməkdaşlığa xüsusi diqqət yetiriləcək.

## XİN: ”Nikol Paşinyanın iddiaları tamamilə əsassız və qəbuledilməzdir”




Ermənistanın baş naziri Nikol Paşinyanın aprelin 13-də hökumət iclasında çıxışı zamanı Laçın istiqamətində baş vermiş son təxribatda məsuliyyəti Azərbaycan tərəfinin üzərinə atması, Azərbaycanı Praqa və Soçi görüşləri çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmaqda təqsirləndirməsi tamamilə əsassızdır və qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş naziri Nikol Paşinyanın səsləndirdiyi iddiaları şərh edərkən bildirib. O deyib: ”Avropa İttifaqının bir gün əvvəlki bəyanatına istinad edən baş nazirin delimitasiya üçün 1991-ci il sərhəd xəttinin əsas götürülməsi ideyasını təkrarlaması bir sıra qərəzli məqamları ehtiva edir. Belə ki, Ermənistan baş nazirinə xatırlatmaq istərdik ki, Ermənistan tərəfindən Azərbaycana qarşı başladılan işğal siyasəti nəticəsində, 1990-cı ildə Kərki və Bağanis Ayrım kəndləri Ermənistan tərəfindən işğal edilib. Bununla yanaşı, Ermənistanın üçtərəfli Bəyanata zidd olaraq, Azərbaycan ərazilərindən hələ də erməni silahlı qüvvələrini çıxırmaması, 8 Azərbaycan kəndini işğal altında saxlaması məlumdur. Bu xüsusda, baş nazir ilk öncə 1991-ci il sərhədləri dedikdə nə nəzərdə tutulduğu məsələsinə aydınlıq gətirməlidir.

Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddiaları davam etdirməsi və bu ərazilərdən qüvvələrini geri çəkməməsi Praqa və Soçi razılıqlarının ciddi şəkildə pozulmasının və Ermənistanın sülh prosesində maraqlı olmamasının bariz nümunəsidir.

Ermənistanın Azərbaycanda həyata keçirdiyi təxribatlara və qeyri-qanuni fəaliyyətlərə son qoymaq məqsədilə Laçın yolunun başlanğıcında sərhəd nəzarət-keçid məntəqəsinin yaradılması barədə Azərbaycanın təklifinə müsbət cavab vermək əvəzinə, Ermənistan tərəfi Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolu ilə bağlı qərarını da təhrif etməkdən çəkinmir. Qeyd edək ki, Azərbaycan hökumətinin Laçın yolunda baş verən etirazların təşkilatçısı olduğu iddiası məhkəmə tərəfindən rədd edilib, ”yolun bağlandığı” və ”ərazinin blokadada” saxlandığı barədə iddiaların heç bir əsası yoxdur.

Ermənistan tərəfindən əsassız bəyanatlar vermək əvəzinə, ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara geri qayıtmağı, kommunikasiyaların açılması, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik”.

**Ermənistan tərəfinin sonuncu təxribatı heç də təsadüfi deyildi və bu təxribatların kifayət qədər pərdəarxası məqamları var. Ermənistan tərəfinin məhz indi təxribat törətməsi bu qənaətə gəlməyə əsas verir və ermənilərin hədəfinin daha genişmiqyaslı olduğu zərrə qədər şübhə doğurmur. Ən azından vəziyyətdən namərdcəsinə istifadə etmək, Azərbaycanı təcavüzkar tərəf kimi göstərmək üçün hər yola əl atmaq kimi çirkin niyyət özünü göstərməkdədir, baxmayaraq ki, buna nail olunmadı və yenə də təcavüzkarların ermənilər olduğu bir daha öz təsdiqini tapdı.**



# Son erməni təxribatlarında

# PƏRDƏARXASI MƏQAMLAR

Əvvəla, Ermənistanın son təxribatlarında birinci pərdəarxası məqam odur ki, ermənilər aranı qızışdırmaqla sərhədlərin delimitasiyasına mane olmaq fikrinə düşüblər. Çox güman ki, başda elə baş nazir Paşinyan olmaqla, onun komandası sərhədlərin bərpasından çox narahat olub. Onu da diqqətə çatdıraq ki, bu narahatlıq heç də torpaq məsələsi deyil, Ermənistan hakimiyyətinin daxili auditoriyaya hesabladığı addımıdır. Çünki Nikol və onun komandasının sərhədlərin bərpasına gözlərini döyərək baxmasına Ermənistan müxalifətinin gözlənilən özünəməxsus reaksiyası Vovayeviçin ən böyük qorxusudur və özünü bu təzyiqdən sığortalamaq üçün işğalçı ölkə hakimiyyəti bu təxribatlara rəvac vermiş oldu. "Laçın istiqamətində sərhədin 12 kilometrlik hissəsinin 7 kilometrində yerləşmə məntəqələri dəqiqləşdirilib, 5 kilometr hissəsi mübahisəlidir", deməsi təsdiq edir ki, təxribatlardan lap əvvəldən erməni baş nazirin xəbəri də olub, üstəlik, bu təxribatlarda Nikol Paşinyanın özünün barmağı da var.

Sonuncu erməni təxribatlarında daha bir məqam, 44 günlük müharibənin məntiqi sonluğundan, Ermənistanın məğlubiyyətindən sonra danışıqlar masasında olan razılaşmaları, yaxud şərtləri dağıtmaq niyyətidir. Bilirik ki, məğlubiyyətdən sonra Ermənistan tərəfi, şəxsən Nikol Paşinyan və onun hakimiyyət komandası danışıqlarda uduzmuş tərəf kimi çıxış edir və bu zaman Azərbaycanın irəli sürdüyü şərtlərlə razılaşmaq məcburiyyəti ortaya çıxır. Deməli, qarşı tərəf bundan, bu vəziyyətdən, məğlub durumda olaraq düşdüyü çarəsizlikdən yaxa qurtarmaq üçün indi hərbi eskalasiya barədə düşünüb və bunu Ermənistan üçün siyasi baxımdan lazım hesab edib. Ən azından Ermənistan tərəfi hesab edir ki, belə hərbi eskalasiya ilə üçtərəfli razılaşmada üzərinə götürdüyü öhdəliklərdən imtina etmək üçün bəhanə əldə edə bilər, halbuki rəsmi İrəvan bu fikirdə, bu gedişdə də yanılır.

Ermənistan tərəfinin törətdiyi sonuncu təxribatlarda daha bir məsələ də diqqəti cəlb etməyə bilməz və bu məsələ onların sərhəddə gətirdikləri Avropa İttifaqı missiyası ilə birbaşa əlaqəlidir. Əvvəla, ermənilər planlaşdırırlar ki, belə təxribatlarla guya Azərbaycanın "təcavüzkar" olması rəyini Avropa İttifaqı missiyasının hazırlayacağı hesabatda görə bilərlər. Bir sözlə, onlar Azərbaycana qarşı hansısa beynəlxalq təzyiqin olmasını arzu edirlər və buna çalışırlar. Lakin Laçın yolu məsələsini dünyaya yaydıqları və bununla ölkəmizə "təcavüzkar" kimi böhtan atmaq cəhdləri puç olduğu zaman gərək əmin olmalı idilər ki, əldən-ayaqdan getmələrinin heç bir mənası yoxdur. Görünür, erməni başı bunu dərk edə bilməyib, əks halda belə təxribat əməllərinə əl atılmaz, məsələnin doğru istiqamətdə həllinə can atılardı və bu doğru istiqamət də sözsüz ki, sülh müqaviləsinin imzalanmasından keçir, hansı ki, gec-tez bu qənaətə gəlməlidirlər. Fəqət nə qədər tez doğru yola, məntiqi qənaətə gəlsələr özləri üçün bir o qədər yaxşı olar.

İşğalçı ölkə belə təxribatlarla dünyanın diqqətini cəlb etməyə çalışır. Məqsəd də bir tərəfdən ondan ibarətdir ki, Avropa İttidaqının bölgədə guya vacib olduğu təəssüratı yaradılsın. Rusiyanın da, bütövlükdə KTMT-nin də dəstəyindən məhrum olduğu qənaətində olan Ermənistanın bölgəyə yeni iştirakçı cəlb etmək həvəsinə düşdüyü hər addımda görünür. Əlalxüsus, Avropa İttifaqı və ittifaqın missiyası altında çıxış edən Fransanın bölgəyə dəvət edilməsindən, cəlb edilməsindən ötrü ermənilər dəridən-qabıqdan çıxırlar. Nikol Paşinyan və onun komandası indi Fransaya yeganə himayədar kimi baxır və rusların himayəsindən əllərinin üzüldüyünü başa düşdükləri üçün, bu dəfə fransızların kölgəsinə sığınmaq arzusundadırlar.

Diqqətə çatdıraq ki, bu ilin may ayında Azərbaycan və Ermənistan arasında növbəti görüşün Vaşinqtonda keçiriləcəyi gözlənilir. Belə bir görüşün keçirilməsindən öncə rəsmi İrəvan məhz Vaşinqtonda da Azərbaycanın guya təcavüzkar obrazını yaratmaq istəyir və təxribatlar törətməklə yenə də böhtan kompaniyası başlatmaq niyyətindədir. Təbii ki, Qərb Ermənistanın müstəqil siyasət yeridə bilmədiyindən məharətlə istifadə edir və bu ölkə hakimiyyətini özü üçün marionet olaraq qəbul edir. Belə bir şəraitdə Qərbin demokratiya adı altında yağlı tikə vəd edərək, bölgədə Rusiyadan daha tez və yaxından iştirak etmək arzusunu da Ermənistan tərəfi yaxşı bilir və buna şərait yaratmaq üçün də təxribatlara rəvac verə bilər. Daha dəqiq desək, Ermənistan tərəfi Rusiya Sülhməramlı Kontingentinin, bütövlükdə Rusiyanın təhlükəsizliyin təmin olanmasında aciz və yararsız olması görüntüsü yaratmaqla Qərbi oyuna çəkmək istəyir. Təkcə Qərbi yox, bu hiyləgər siyasətlə elə Rusiyanı da qıcıqlandırmaq fikrinə düşən ermənilər bilirlər ki, ruslar Vaşinqtonda keçiriləcək görüşdən də öncə bu görüşün məhz özləri tərəfindən, öz ölkələrində reallaşdırmağa can atacaqlar. Bir sözlə, ermənilər Rusiya və Qərb arasında yenə də ikibaşlı oyunu özlərinə rəva bilirlər və danışıqlar masasında ən xırda divident müqabilində hər cür simasızlığa hazır olduqlarını bir daha göstərdilər.

Məsələ burasındadır ki, İran tərəfini də ermənilər öz hiyləgər oyunlarına alət olaraq istifadə etməkdədirlər və gah Rusiya, gah da Qərb yönümlü olmalarını nümayişkərnə şəkildə göstərməklə, bir növ bölgədə İranın kənarda qalması görüntüsü yaradaraq həmin ölkəni də qıcıqlandırır, aktiv şəkildə proseslərə qoşmağa çalışırlar. Bu gün Azərbaycanla, bütövlükdə İslam dünyası ölkələri ilə kəllə-kəlləyə gələn, ən azından münsibətləri heç də normal olmayan İran da görünür bu oyunlarda alət olmağı özünə rəva bilir və nəinki proseslərdə, hətta ermənilərin təxribatlarında iştirak etmək belə bu İslam ölkəsi üçün də məqbul hesab olunur. Deməli, Ermənistan artıq İranı öz oyununa cəlb edə bilib və o yekəlikdə bir ölkə alət olaraq istifadə edilir və son təxribatların bunun üçün də nəzərdə tutulduğu təkzib edilə bilməz.

Ermənistan tərəfi görür ki, Azərbaycan tərəfi ilk növbədə delimitasiya məsələlərini ön planda saxlayır və bu fikirdən bizi nəinki işğalçı ölkə, heç Rusiya da, Qərb də döndərmək imkanına, təsir gücünə malik deyil. Deməli, Ermənistan tərəfi bilir ki, növbəti danışıqlar zamanı Azərbaycan delimitasiya məsələlərini önə çəkəcək və son təxribatlarda bir məqsəd də diqqəti yayındırmaqla, bunun qarşısını almaqdır. Azərbaycanın delimitasiya komissiyasına rəhbər təyin etməsindən bir gün sonra Ermənistanın sərhəddə təxribatlar törətməsi heç də təsadüfi sayılmır və deyilənləri təsdiq edir. Təsdiq edir ki, görüşün kim tərəfindən və harada keçiriləcəyindən asılı olmayaraq, Azərbaycanın delimitasiya məsələsində israrlı olacağını indidən dərk edən ermənilər məhz delimitasiya məsələsindən diqqəti yayındırmaq üçün təxribatlar törətməyi, yanlış da olsa belə, yeganə çıxış yolu hesab edirlər. Buradan belə bir nəticə hasil olur ki, Ermənistan tərəfi bu təxribatlara çoxdan hazırlıq görür, çoxdan hazırlaşırmış. Məqsəd də həmişə olduğu kimi, heç də məsələnin doğru istiqamətdə həlli deyil, Avropa İttifaqından gəlmiş mülki missiyanı hərbi missiyaya çevirmək, Fransanın gəlib Azərbaycan sərhəddində dayanmasına nail olmaq, Qərbi oyuna çəkmək, Rusiyanı qıcıqlandırmaq və qızışdırmaq, İrandan da istifadə etməkdir ki, bununla nəyə isə nail olacaqlarını, ən azından prosesi uzadacaqlarını zənn edirlər.

***İnam Hacıyev***

# Azərbaycan sabitlik adası - təhlükəsizlik məkanıdır

## PREZİDENT İLHAM ƏLİYEV: "Sabitlik inkişafın və təhlükəsizliyin əsasıdır"

Prezident İlham Əliyevin cari ilin aprel ayının 5-də Tacikistan Respublikasına dövlət səfəri hər iki ölkə arasında bütün istiqamətlərdə münasibətlərin inkişafına xidmət edir. Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistanın dövlət başçısı Emoməli Rəhmon ilə geniş tərkibdə görüşündə iki ölkə xalqlarını qədim tarixi köklərə malik ənənəvi dostluq telləri bağladığını vurğulayıb, ötən illər ərzində həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın hərtərəfli şəkildə genişləndiyini deyib. İki ölkə arasında münasibətlərin dinamik inkişafı dövlət başçılarının mətbuata bəyanatlarında da əksini tapıb.

### AZƏRBAYCAN SÜLHSEVƏR DÖVLƏTDİR VƏ DÖVLƏT BAŞÇIMIZIN YÜRÜTDÜYÜ SİYASƏT DƏ BU AMALA XİDMƏT EDİR

Elə aprelin 5-də Azərbaycan Prezident İlham Əliyev və Tacikistanın dövlət başçısı Emoməli Rəhmon ilə mətbuata bəyanatı da bir daha göstərir ki, Azərbaycan sülhsevər dövlətdir və dövlət başçımızın yürütdüyü siyasət də bu amala xidmət edir: "Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı".

Bəli, bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda da müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar.

Azərbaycan Prezidenti bəyanatında respublikamızın Tacikistanda investisiya layihələrini ciddi nəzərdən keçirməyə hazır olduğunu bildirərək, bunu dost ölkənin bizə yaxın dövlət olması, orada sabitlik hökm sürməsi ilə əlaqələndirib: "İnvestisiyalar yalnız sabitlik və yaxşı investisiya şəraiti olan ölkələrə yönəldilir. Çoxsaylı xarici şirkətlər tərəfindən Tacikistanda fəal sərmayə qoyulması ona dəlalət edir ki, investisiyalar, o cümlədən, xarici investisiyalar dövlət tərəfindən qorunur".

### AZƏRBAYCANIN SABİTLİK MODELİ: HAQLI OLMAĞIN BƏHRƏSİ

Bəli, dünya tarixində 2022-ci il gərginliyi və çoxsaylı sosial problemləri ilə qaldı. Bunun əsas səbəblərindən biri Rusiyanın Ukraynada apardığı müharibədir. Azərbaycan isə dünyanın indi üzləşdiyi bir sıra problemləri 30 ilə yaxın müddət ərzində yaşayıb. O illərdə rəsmi Bakı torpaqlarının 20 faizinin işğal olunmasına, bir milyondan çox vətəndaşının ata-baba yurdlarından didərgin düşməsinə beynəlxalq ictimaiyyətin diqqətini bu vəziyyətə çətinliklə cəlb edirdi. Dünyanın aparıcı gücləri Azərbaycanın haqlı tələblərini, istəklərini 30 ilə yaxın görməzlikdən gəlib və qulaqardına vurub. Rəsmi Bakının o vaxt gündəliyə gətirdiyi problemlərin həllinə düzgün yanaşılsaydı, ola bilsin ki, bu gün nə Avropa, ABŞ, nə də Rusiya bugünkü təhdidlərlə üzləşərdi. Azərbaycan 30 il ərzində terrora məruz qalıb, torpaqları işğal olunub, qaçqınlıqla üzləşib. Minlərlə dinc və hərbçi vətəndaşını itirib. Azərbaycan dünyanın narahatlıqla qaldırdığı problemlərin həllinə, enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir.

### 44 GÜN ƏRZİNDƏ ERMƏNİSTANIN VƏ ONUN HAVADARLARININ MÜQAVİMƏTİNİ QIRARAQ CƏNUBİ QAFQAZDA YENİ GEOSİYASİ, HƏRBİ REALLIĞIN YARANMASINA NAİL OLUB

Göründüyü kimi, Azərbaycan 44 günlük müharibəsindən sonra işğaldan azad etdiyi ərazilərinin 20 faizini yenidən qurmağa başlayıb və sülhsevərliyi, öz torpağını azad etməsi, əməkdaşlığa üstünlük verməsi, quruculuq işləri, regionda, Cənub Qafqazda təhlükəsizliyin başlıca təminatçılarından biri kimi Azərbaycanın dünyada nüfuzu artır. Dünya miqyasında baş verən hadisələr beynəlxalq gərginlik və güc mərkəzlərinin qarşı-qarşıya durduğu şəraitdə öz ərazi bütövlüyünü bərpa etmək üçün ölkə liderinin biliyi, bacarığı, qətiyyəti və uzaqgörənliyi, düzgün daxili və xarici siyasəti, mükəmməl ordu quruculuğu tələb olunduğunu bir daha sübut edir. Bu keyfiyyətləri özündə birləşdirən Azərbaycan Prezidenti İlham Əliyev xaricdən gələn çoxsaylı təzyiqlərə baxmayaraq, 44 gün ərzində Ermənistanın və onun havadarlarının müqavimətini qıraraq Cənubi Qafqazda yeni geosiyasi, hərbi reallığın yaranmasına nail olub.



Genişmiqyaslı hərbi əməliyyatlar və müharibə dövlətin büdcəsindən milyardlarla maliyyə vəsaitinin xərclənməsinə səbəb olur. Nəticədə ölkə iqtisadiyyatı tənəzzülə uğrayır. Dövlətin düşdüyü ağır maddi-iqtisadi vəziyyətdən çıxması üçün böyük məbləğdə maliyyə vəsaitlərinə ehtiyac yaranır. Azərbaycan torpaqlarının minalardan təmizlənməsi və bərpası prosesini təkbaşına həyata keçirir.

### İQTİSADİ BÖHRANLAR FONUNDA SABİTLİYİN HÖKM SÜRMƏSİ AZƏRBAYCANIN HAQLI, ƏDALƏTLİ MÖVQEYİNİN NƏTİCƏSİDİR

Bu bir reallıqdır ki, dünyada yaranan mövcud problemlər və qarşıdurmalar fonunda Azərbaycan iqtisadi, hərbi qüdrətini, regionda və dünyada nüfuzunu artırır. Dünyanın aparıcı gücləri isə bu gün yaratdıqları və görməzdən gəldikləri çoxsaylı problemlərin həlli ilə məşğul olurlar. Bu zaman çox sayda insan itkisi, iqtisadi tənəzzül, sosial problemlərlə üzləşir. Beynəlxalq ictimaiyyətin üzləşdiyi gərginlik, qarşıdurma, müharibə və iqtisadi böhranlar fonunda sabitliyin hökm sürməsi Azərbaycanın haqlı, ədalətli mövqeyinin nəticəsidir.

Və bu gün Tacikistan Prezidenti Emoməli Rəhmonun dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 5-də dost ölkəyə rəsmi səfəri də bu münasibətləri də qədim tarixi köklərə malik olan ənənəvi dostluq telləri bağlayır. Və Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında da mühüm məqamı da xüsusi qeyd etdi ki, bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərin uğurlu inkişafı məhz 1990-cı illərin əvvəllərindəki fəaliyyətin nəticəsidir: "O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, - hərəsi öz ölkəsində, - qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular".

Bəli, bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Hazırda regionda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, bu reallıq təsdiqlənir ki, sabitlik inkişafın, təhlükəsizliyin əsasıdır. Bəli, sabitlik olmasa nə investisiyalar, nə də tərəqqi və insanların rahatlığı olacaq. Ulu Öndər Heydər Əliyev hər bir inkişafın əsasında sabitliyin dayandığını xüsusi qeyd edirdi. İqtisadi əlaqələrin qurulmasında bu amilin rolu böyükdür. Təbii ki, hər bir ölkə investisiya yatırdığı dövlətdə sabitliyə, demokratik inkişafa xüsusi diqqət göstərir. Çünki, bu gün Azərbaycan özünə güvənir, öz gücü ilə özünü təmin edir! Çox uzağa getməyək. Regionumuzda da iqtisadi tənəzzül, siyasi qeyri-sabitlik, ictimai münasibətlərdə ziddiyyətlər və digər problemlər ölkələri öz ağuşuna alıb. Cənubi Qafqazın 3 ölkəsindən ikisi - Gürcüstan və Ermənistanda zaman-zaman (və tez-tez) siyasi və hakimiyyət böhranı, iqtisadi problemlər, xarici siyasətdə krizis halları müşahidə edilir. Azərbaycanın digər bir sıra qonşuları da milli təhlükəsizliyə təhdid yaradan hallardan (iqtisadi geriləmə, ictimai münasibətlərdə etimadsızlıq, beynəlxalq müstəvidə problemlər və s.) əziyyət çəkirlər. Bu, əslində, daxili və xarici siyasətin düzgün prinsiplər, hədəflər əsasında qurulmamasından qaynaqlanır. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində bu gün Azərbaycan xaos və anarxiya meydanına, geosiyasi mübarizə poliqonuna, "demokratiya laboratoriyası"na, dini, etnik müstəvidə qarşıdurma sahəsinə çevrilən region ölkələrindən fərqli olaraq öz milli qüdrətini artırıb.

### AZƏRBAYCANIN SABİTLİK ADASI - TƏHLÜKƏSİZLİK MƏKANIDIR

Bəli, bu gün Azərbaycanın sabitlik adası - təhlükəsizlik məkanıdır. Azərbaycan təkcə Cənubi Qafqazın lider ölkəsi - regional güc mərkəzi deyil. Bakı yeni reallıqlar fonunda dialoq və əməkdaşlıq məkanı, inam və etimad ünvanıdır. Ölkəmizdə mötəbər tədbirlərin, görüşlərin keçirilməsi, qlobal siyasi atmosferə təsir imkanlarına malik elita tərəfindən taleyüklü məsələlərin müzakirəyə çıxarılması və digər bu kimi nümunələr iki məqamı ifadə edir: ölkəmizə inam və etimad yüksəkdir. Reallıqlar həm də onu təsdiqləyir ki, Azərbaycan ilə tərəfdaşlığın genişləndirilməsi güc mərkəzləri üçün strateji prioritetlərdən biridir. Bakıya regional və beynəlxalq təhlükəsizlik məsələsində inam - etimad mesajları, tərəfdaşlığı gücləndirmək çağırışları da bu səpkidə xüsusi əhəmiyyət daşıyır. Azərbaycan nəinki öz təhlükəsizliyini təmin edir, hətta regional sabitliyə və inkişafa çox mühüm töhfələr verir. Ölkəmizin təşəbbüsü ilə çoxtərəfli regional əməkdaşlıq formatları yaradılır. 44 günlük müharibədə qalib gələn ölkəmiz 100 ilik geostrateji arxitekturanı dəyişdirir. Regionda yeni geosiyasi nizamın məhz Azərbaycan-Türkiyə strateji müttəfiqliyi fonunda təşəkkül tapması isə diqqəti cəlb edir. Xüsusi vurğulamaq gərəkdir ki, iki dost, qardaş və tərəfdaş ölkə Şuşa Bəyannaməsini imzalamaqla müttəfiqlik münasibətlərinin strateji xarakterini və ən yüksək səviyyədə olduğunu bir daha təsdiqləyiblər. Bəyannamə regionun yeni geostrateji reallıqlarını təsdiqləyən sənəddir. Qars müqaviləsindən yüz il sonra Şuşa Bəyannaməsinin imzalanması hər iki ölkənin yeni hərbi-siyasi təhlükəsizlik çətiri formalaşdırması - yeni milli və regional təhlükəsizlik mexanizmi yaratmasıdır.

Bu yerdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 28 may - Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubunda qeyd etdiyi: "Bir millət, iki dövlət" şüarı ilə davam etdirdiyimiz mükəmməl səviyyədəki əlaqələrimizi Şuşa Bəyannaməsinə uyğun olaraq müttəfiqlik iradəsi ilə gücləndirdiyimizə görə məmnunluq hissi keçirirəm. Ortaq səylərimiz, nümunəvi həmrəyliyimiz və sarsılmaz qardaşlığımızın keçmişdə olduğu kimi, gələcəkdə də regionumuzda sülhün, rifahın və sabitliyin ən böyük təminatçısı olmaqda davam edəcəyinə ürəkdən inanıram".

### Bəli, bu gün müstəqil, qalib, nüfuzlu, qüdrətli, güclü Azərbaycan Qalib Lider İlham Əliyevin siyasəti, xalqın iradəsi, xalq-Lider birliyi və ya milli həmrəyliyi ilə tarixi Qələbə, möhtəşəm Zəfərə nail oldu!

Azərbaycan Prezidenti İlham Əliyevin Düşənbədə Tacikistan Prezidenti Emoməli Rəhmon ilə birgə mətbuata bəyanatında dediyi bütün deyilənlərin təsdiqidir: "Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı". Bəli, bu gün Azərbaycan bütün bunlara Qalib Liderimiz prezident İlham Əliyevin apardığı proqmatik uğurlu siyasəti ilə nail olub. Və "Sabitlik bütün inkişafın əsasıdır" söyləyən ulu öndər Heydər Əliyevin bu arzusu artıq reallığı çevrilib. Son 19 ildə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizə biri-birindən əhəmiyyətli uğurlar qazandırıb. Dövlətimizin başçısı İlham Əliyevin Yeni Azərbaycan Partiyasının V qurultayında səsləndirdiyi bu fikirləri bir daha xatırlatmaq istərdik: "Qürur hissi ilə deyə bilərəm ki, bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi kimi inkişaf edir, onun qoyduğu yolla gedir, güclənir, möhkəmlənir və çox güclü regional amilə çevrilibdir".

**R.Hüseynova**

# İdarəetmədə Heydər Əliyev zəkası

## Azərbaycanda ictimai-siyasi sabitliyin memarı siyasətçilərin gözü ilə



**Yazının əvvəli ötən sayımızda...**

Sovet İttifaqının parçalanması və respublikaların İttifaqdan ayrılaraq müstəqil yaşamağa başlamasından sonra iqtisadi əlaqələrin kəsilməsi, dövlət planlaşdırması və idarə edilməsi ləğv edildiyindən, xarici bazara sərbəst çıxış olmadığından xammal və texnologiyalar əldə edə bilməyən zavod-fabriklər sıradan çıxdı, təsərrüfat böhrana düşdü, ordu dağılmağa başladı, sosial tənəzzül yaşandı. Sosialist iqtisadi sistemindən kapitalizmə keçid prosesi özü ilə çoxsaylı problemlər gətirdi. Yaranmış vəziyyət təcili tədbirlər görülməsini, iqtisadiyyatda, müdafiədə, sosial siyasətdə dönüş yaradılmasını tələb edirdi. Lakin 90-cı illərin əvvəllərində respublika hökuməti bu işin öhdəsindən gələ bilmədi. Vəziyyət yalnız 93-cü ilin ortalarından- ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra dəyişməyə başladı.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra da apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Milli Ordu formalaşdırıldı, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər.





"Səs" qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "dəyirmi masa"lardan növbətisi təşkil olundu. "Dəyirmi masa"dakı müzakirələrə Yeni Azərbaycan Pariyasının Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Sumqayıt Şəhər Təşkilatının sədri Ramiz Hüseynov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev, siyasi ekspert Abutalıb Səmədov, Yeni Azərbaycan Partiyasının veteran üzvü Valeh Sefiyev iştirak ediblər.

Dəyirmi masanı giriş sözü ilə "Səs" qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyev açdı. O qeyd etdi ki, "Səs" qəzeti cəmiyyətin maraq dairəsində olan ən aktual, əhəmiyyətli mövzular çərçivəsində hər zaman "dəyirmi masa"lar təşkil edib və bu masa ətrafındakı söhbətlər həmişə maraqla qarşılanıb. Budəfəki "dəyirmi masa" söhbətinin mövzusu isə adı Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazılan Ümummilli Lider Heydər Əliyev və Onun Azərbaycanın taleyindəki əhəmiyyətli xidmətləridir:

"Cənab Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Ümummilli Lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində - 1969-cu ildən başlayaraq Azərbaycanın birinci katibi vəzifəsində çalışdığı zamanda, istərsə də 1993-cü ildə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dönüş, inkişaf, eləcə də, ölkəmizin dünya məkanında özünəməxsus yer tutması onun məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş müharibəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıdaraq Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atdı. Bu gün qonaqlarımızla Ulu Öndərin xatirəsini yad etməklə yanaşı, Onun Azərbaycanın müstəqilliyi uğrunda həyata keçirdiyi işlərdən danışacağıq".

**Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev** çıxışında Heydər Əliyev dühasının müstəsna xidmətlərindən danışdı: "Dahilik həlli qeyri-mümkün görünən vəzifənin öhdəsindən gəlməyi bacarmaqdır. Elə şəxsiyyətlər, dövlət xadimləri olmuşdur ki, onlar öz ölkəsinin, öz millətinin taleyində böyük rol oynayıblar. Dərin zəkası, əməli fəaliyyəti ilə Azərbaycanımızın müstəqilliyinə əbədi möhür vuran Ulu Öndər Heydər Əliyev böyük tarixi missiyası ilə Öz doğma yurdunu qəlbən sevən hər bir azərbaycanlının qəlbində əbədi məhəbbət qazanıb.

Zəngin dəyərlər xəzinəmiz olan tarixi yaddaşımız və milli kökümüz bizim qürurumuzdur. Dahi rəhbər bu mənəvi, əxlaqi mədəni və sosial dəyərlərə misilsiz qayğı ilə yanaşaraq hər birimizə, millətə bağlılıq, Vətənə sevgi nümunəsi göstərib. Ümummilli Liderin idarəçilik istedadı, misilsiz işgüzarlığı və xalqın həyatında baş vermiş ən ekstremal vəziyyətlərin aradan qaldırılmasının bilavasitə iştirakçısı olması Onu dövrünün ən nüfuzlu siyasi xadimlərindən birinə çevirib. O, bütün ömrünü xalqın səadəti uğrunda mübarizəyə həsr etdi.

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu 34 ildən artıq bir dövrü Ulu Öndərin adı ilə bağlıdır. Bu dövr ərzində Heydər Əliyev xalqı tarixin ən çətin sınaqlarından çıxararaq dövlətimizin tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələrdən birini təşkil edir.

Xalqımızın həyatında elə bir sahə yoxdur ki, o sahədə Heydər Əliyevin əvəzsiz rolu olmasın. Gənc nəsil də Ulu Öndər Heydər Əliyevdən, sözün əsl mənasında, böyük qayğı görüb. Gənclərin hərtərəfli inkişafında, onların milli kadr kimi formalaşmasında dahi şəxsiyyət əlindən gələni əsirgəməyib. Şübhəsiz ki, Heydər Əliyevin həyat yolu bütün insanlar, xüsusilə də biz gənclər üçün əsl məktəbdir. Dərin və hərtərəfli biliyə, güclü məntiqə, unikal yaddaşa malik olan, böyük əməksevərlik və fədakarlıq nümunəsi yaradan Heydər Əliyev gənclərə qayğı və sevgi göstərməklə yanaşı, həm də onların qarşısına müəyyən vəzifələr qoyaraq deyirdi: "Sizin əsl vəzifəniz özünüzü Azərbaycan Respublikasının inkişafına, yaşamasına və əbədiliyinə həsr etməkdən ibarət olmalıdır". Çünki hər hansı bir cəmiyyətin inkişafı aparıcı qüvvə olan gəncliyin necə tərbiyə olunmasından, hansı ideyalarla silahlanmasından asılıdır.

Dağdan uzaqlaşdıqca onun əzəməti aydın hiss olunduğu kimi, zaman ötdükcə Azərbaycan xalqı bu dahi şəxsiyyətin əzəmətini, ucalığını daha aydın hiss edir. Ömrünü vətən, xalq yolunda şam kimi əridən, tariximizə parlaq səhifələr bəxş edən Ulu Öndər bizim qürur mənbəyimiz, milli iftixarımızdır. Bu gün biz gənclər Heydər Əliyev siyasətinin uğurlu davamçısı Prezident İlham Əliyevin ətrafında sıx birləşərək inamla gələcəyə addımlayır, Heydər Əliyevin biz gənclərə etibar etdiyi qüdrətli Azərbaycana öz töhfəmizi verməyə çalışırıq.

Müstəqil dövlətimizin qurucusu və xalqımızın xilaskarı, dahi şəxsiyyət Heydər Əliyev cismən aramızda olmasa da, Onun ideyaları və böyük dühası əbədiyaşardır. Əminik ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu şaddır. Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına müraciətində demişdi: "İnanıram ki, Mənim başa çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev tamamlaya biləcəkdir. Ona Özüm qədər güvənirəm və gələcəyinə böyük ümid bəsləyirəm". Həqiqətən də, Prezident İlham Əliyev xalqımızın Ulu Öndəri Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü Onun ideya və əməllərini davam etdirən, vəsiyyətlərini gerçəkləşdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bərpa edilmiş, 30 ildən bəri düşmən əsarətində olan Qarabağ əbədi azadlığına qovuşmuşdur. Heydər Əliyevin böyük siyasəti qalib gəlməklə Onun ölməzliyini bir daha təsdiqləyib.Ulu Öndərin qüdrətli dövlətçilik siyasəti ilə və biz gənclərə əmanət qoyduğu müstəqilliyimizlə qürur duyur, bu müstəqilliyi bizə bəxş etmiş dahi şəxsiyyəti daim ehtiramla yad edirik.

**Daha sonra siyasi ekspert Abutalıb Səmədova söz verildi.** O öz çıxışında bildirdi ki, Ulu öndər Heydər Əliyev- Azərbaycanın dünya siyasətinə bəxş etdiyi nəhəng şəxsiyyətdir: "O, böyük dövlət rəhbərləri ilə zəngin olan tariximizin ən böyük dövlət xadimi, müstəqil dövlətimizin xilaskarı və qurucusudur. Öz müdrikliyi və təşkilatçılıq bacarığı hesabına dünyanın ən böyük imperiyasının rəhbərlərindən biri olmağı bacarmış dahi həmvətənimizdir. Moskvadakı Azərbaycan Nümayəndəliyində üsyan etdikdən sonra bütün təzyiqlərə, təhlükələrə baxmayaraq Vətənə qayıtdı.

Bakıda yaşamasına imkan verilmədiyinə görə blokada şəraitində yaşayan, istilik və ərzaq çatışmazlığı ilə üzləşmiş Naxçıvana getmək məcburiyyətində qaldı. Doğulduğu torpaqda xalq ondan Muxtar respublikada rəhbərliyə gəlməyi xahiş etdi və o bu çağırışa da "yox"-deyə bilmədi, miqyasına qətiyyən uyğun olmayan bir vəzifəni tutmağa razılıq verdi.

Onun gəlişinədək ölkə çox qarışıq idi, hərcmərclik içində idi. Ümummilli Lider hakimiyyətə gəldikdən dərhal sonra ölkədə sabitlik, əmin-amanlıq bərpa edildi, iqtisadi islahatlar geniş vüsət aldı. Dövlətçiliyin təhlükə altında olduğu məqamlarda dövlət başçısının necə davranmalı olduğu barədə dərs keçdi. O bu açıq dərsini 1996-cı ildə Respublika sarayında keçirdi. Dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasına həsr olunmuş xalq toplantısında ulu öndər üzünü həm daxili və xarici düşmənlərə, həm də kiçik təhlükə hiss edən kimi postunu atıb qaçan dövlət başçılarına tutaraq qətiyyətlə bəyan etdi: "Mən ya müstəqil Azərbaycan dövlətini quracağam, ya da bu yolda şəhid olacağam!".

**Yeni Azərbaycan Partiyasının veteran üzvü Valeh Sefiyev** çıxış edərək bildirdi ki, 90-cı illərin çətin dövründə Heydər Əliyev hakimiyyətə gəlməklə xalqı böyük bəlalardan xilas etdi: "Ölkəni o vəziyyətdən çıxarmaq üçün təmiz vicdan, saf məqsəd lazım idi. Müstəqilliyi və tərəqqisi üçün Azərbaycanın əbədi borclu olduğu Ulu Öndər Heydər Əlirza oğlu Əliyev hər bir azərbaycanlının qəlbində silinməz bir iz qoyub.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz Ulu öndərin adı ilə əlaqədardır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarıb.

Qədirbilən xalqımız özünün əbədiyaşar ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini daim uca tutacaq, böyük Heydər Əliyev yolu ilə gedərək, bu yolun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək, bu ideyaların gerçəkləşdirilməsində qüvvə və səylərini əsirgəməyəcəklər. Azərbaycan yaşadıqca, dünya durduqca, Azərbaycan insanına örnək olan, Azərbaycanı var edən, adı Azərbaycana güc və şərəf verən Ulu öndərimiz Heydər Əliyev yaşayacaq".

***Lalə Mehralı***

# Aprel abidəsi

**Bu xalq torpağı namus hesab edir. Bu namus haqqında danışmağın zamanı, anı yoxdur. Hər an danışmalıyıq. Danışdıqca da işğalı unutmamalı, Zəfərin qüruru ilə yaşamalıyıq. Çünki torpaqlarımız erməni işğalında qaldıqca yuxularımız şirin, başımız, qamətimiz dik ola bilməzdi. Biz özümüzdə güc hiss edən kimi o torpaqları geri almaq üçün ayağa qalxacaqdıq. 2016-ci ilin aprelində, 2018-ci ilin mayında, 2020-ci ilin iyulunda, 2020-ci ilin sentyabrında olduğu kimi. Bu gündən baxanda 6 il əvvəldə bir abidə görünür. Aprel abidəsi. Bu abidə adi abidə deyildi, məşəlli bir abidə idi, o, Zəfərə gedən yolu işıqlandırırdı. Apreldən maya, maydan iyula, iyuldan sentyabra uzanan yolun sonundakı Zəfəri... O Zəfər ki, itirdiyimiz generalımızla, polkovnikimizlə, minlərlə qurbanımız, yüzlərlə qazimizlə ona nail ola bildik.**



## Apreldən Böyük Zəfərə...

Böyük Zəfərə aparan yol öz başlanğıcını 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq dörd gün davam edən döyüşlərdən, 2018-ci il may ayının 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasında həyata keçirilən Günnüt əməliyyatından, 2020-ci ilin tarixi iyul günlərindən götürmüşdü. Bu yolun başlanğıcında biz artıq torpaqlarımızı işğaldan azad etməyə hazır olduğumuzu bəyan etmişdik. 30 ilin əvvəlində itirdiklərimizi 30 ilin tamamında geri almağa qalxmışdıq. İki 30 arasındakı zaman kəsiyi bu ölkəni əsarətdən müstəqilliyə, iqtisadi böhrandan inkişafa, ordu yoxluğundan ordu varlığına gətirib çıxarmışdı. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi ilə bütün sahələrin inkişafı üçün hazırladığı konsepsiya sonrakı illərdə uğurlu nəticələri ilə ölkəmizi dirçəltmiş, ərazi bütövlüyümüz məsələsini gündəmə gətirmişdi. Ötən illərdə ölkədə gənc nəslin vətənpərvər ruhda böyüməsi, torpaqların işğalı səbəblərinin olduğu kimi anladılması onların hər birində o ruhu formalaşdırmışdı ki, Vətən üçün bir əmr yetər.

Aprel döyüşləri Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında baş vermiş hərbi münaqişə, 1994-cü ildə atəşkəs haqqında imzalanan sazişdən bəri ən şiddətli döyüşlər idi. Hələ də düşüncələri 1990-cı illərdə qalan ermənilərin bu dəfə də üstünlük əldə etmə kimi yanlış fikirləri elə həmin dörd gündə alt-üst oldu. Döyüşlər Silahlı Qüvvələrimizin qələbəsi ilə nəticələndi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.

Aprel döyüşləri bir abidəyə çevrildi. Məşəlli bir abidəyə... Yanarlığı ilə xalqa qarşıda işıqlı yolun, o yolun sonunda isə Zəfərin olduğuna işarə verdi.

## Düşmənə verilən aprel dərsinin davamı

Lakin düşmən düşmənliyində, tamahkar tamahkarlığında qalar, deyiblər. Erməni olasan, tamah dişini çəkib atasan, bu mümkün olan iş deyil. Həm də 1990-cı illərin havası yuxarıda da qeyd etdiyim kimi, bu tayfanı nədənsə tərk edə bilmirdi. Bu səbəbdən aradan dörd il ötəndən sonra yenidən baş qaldırdılar. Bu dəfə isə özlərinin də vurğuladıqları kimi, böyük hazırlıqla. 2020-ci ilin iyul ayının 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutdular. Silahlı Qüvvələrimizin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısı alındı. Döyüşün ilk saatlarında Azərbaycan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusu şəhid oldu, 5 nəfər yaralandı, onlardan biri daha sonra aldığı yaralardan dünyasını dəyişdi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, döyüşlər zamanı Ermənistan Ordusunun şəxsi heyəti çoxsaylı itki vermişdi.

İyulun 13-də də qızğın döyüşlər getmişdi. Tovuz istiqamətində tərəflərin bir-birinə qarşılıqlı zərbələr endirməsi yenə də davam etmişdi. Ermənistan kütləvi informasiya vasitələri Ermənistan hərbi bölmələrinin Tovuz rayonunun Ağdam kəndi istiqamətində yerləşən Qaraqaya yüksəkliyini ələ keçirməsi barədə məlumat yaysalar da, Azərbaycan Müdafiə Nazirliyi yayılan məlumatları təkzib edib və heç bir ərazi itkisinin olmadığını, mövqelərin əvvəlki qaydada qaldığını bildirmişdi. Döyüş zamanı Ermənistan artilleriyası toplarla Tovuzun Dondar Quşçu və Ağdam kəndlərini də atəşə tutmuşdu.

14 iyul döyüşləri isə yaddaşımıza həm ağır, həm də silinməz hadisə ilə həkk olundu. Həmin gün Ermənistan Silahlı Qüvvələrinin bölmələri səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutmuşdu. Erməni Ordusunun hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və həmçinin hücumun qarşısını alarkən 5 hərbi qulluqçumuz da həlak oldu. Bu döyüşlərdə yaralananlarımız da var idi. Ermənistanın artilleriya atəşləri nəticəsində Ağdam kəndinin 76 yaşlı sakini həlak olmuşdu.

Biz torpaqlarımız-namusumuz uğrunda general-mayorumuzu, polkovnikimizi itirdik. Bununla sübut etdik ki, bu ölkədə sıravi əsgərdən tutmuş general- mayoradək, polkovnikədək hər kəs ərazi bütövlüyü uğrunda canından keçməyə hazırdır. Ta ki, Vətən tam olsun. Ta ki, əzəli torpaqlarımız, ata-baba yurdlarımız düşmən tapdağı altında qalmasın.

14 iyul hər bir azərbaycanlının qəlbində bir abidə ucaltdı. Bu abidə Polad Həşimov və İlqar Mirzəyev abidəsidir. Bu abidədə iyul döyüşlərində canından keçən bütün döyüşçülər iki yüksək rütbəli zabitimizin ətrafında birgə ucalıblar. Bu abidə elə bir abidədir ki, əsrlər sonra da torpaqlarımızın azadlığına gedən yolda xatırlanacaqdır. Onların əziz xatirəsi hər zaman anılacaq, gələcək nəsillərə qürurla danışılacaqdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev həmin günlər bildirdi: ”Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib”.



Beləliklə iyul döyüşləri bizim qürurumuzla yanaşı, həm də aprel döyüşləri zamanı düşmənə verilən dərsin davamı oldu.

## Aprel abidəsi Zəfər abidəsinə çevrildi

Apreldən sentyabra-Zəfərə gedən yolda bu abidə həm də məşəl oldu. Həşimov və Mirzəyev bu məşəli əlləri ilə yandırıb bu yolu işıqlandırdılar. 44 günlük payızda əldə etdiyimiz Zəfər bu məşəllə işıqlandı, 44 günün hər bir şəhidi, qazisi bu məşəlin şölələrində əllərini isidib payızın sazağında, soyuğunda düşmənlə mübarizə apara bildilər.

Bu abidə ətrafına cəmi iki aydan sonra minlərlə şəhidi, yüzlərlə qazini topladı. Onlar abidədə dəmir yumruğa çevrildilər. Bütün dünyaya sübut etdilər ki, müzəffər Ali Baş Komandanın dəmir yumruğu ətrafında cəmlənmiş yumruqlardır. Yeri gələndə düşmənin başına çırpılmağa hazır olan bu yumruqlar bir daha torpaqlarımızın bir qarışının belə itirilməsinə imkan verməyəcəkdir.







2016-cı ilin Aprel, 2018-ci ilin Günnüt əməliyyatı qələbələri ilə 2020-ci ilin Tovuz döyüşlərində ermənilərin gücsüzlüyünü ortaya qoydu, eləcə də Tovuz döyüşləri sentyabrda başlayacaq İkinci Vətən Müharibəsinə zəmin yaratdı. Artıq yeni torpaqlar iddiasında olan düşmənə bundan gözəl cavab ola bilməzdi. Ermənini yerində oturtmağın zamanı gəlib çıxmışdı.

Aprel, may və iyul döyüşlərindən görünür ki, yetərincə dərs almayan düşmən sentyabr ayında yeni hücum əməliyyatlarına başlayanda bunu sübut etdirdi ki, bəli, o, həmin döyüşlərdən ibrət dərsi götürməyib. Belə olan təqdirdə isə onları yerlərində oturtmaqdan başqa çarə qalmadı. Sentyabrın 27-də Ali Baş Komandandan əmr alan Azərbaycan Silahlı Qüvvələri hücuma başladı. Birinci Vətən Müharibəsindən başlanan yol İkinci Vətən Müharibəsində başa çatdı. Bu yolun hər addımında manеə olan erməni cəmi 44 gün içərisində elə yerində oturduldu, elə diz çökdü ki, əsrlər sonra da özünə gələ, səsini çıxara, Azərbaycan torpaqlarına tərəf baxa bilməz.

Bəli, 44 günlük müharibə həm Birinci Vətən Müharibəsi, həm də aprel, may, iyul döyüşlərinin iştirakçılarının qisası ilə nəticələndi. Eyni zamanda minlərlə qaçqın, köçkün, didərgin adını illərlə üzərində daşıyan insanların intiqamını aldı düşməndən. Onların 30 ildə çəkdikləri torpaq həsrətinin, ata yurdu yanğısının, doğma ev-eşik nisgilinin səbəblərini cavablandırmağı tələb etdi düşməndən.

Düşmən tamahının, yalan və fırıldağının, qəddarlığının, illərdən bəri həyata keçirdiyi işğalçılıq siyasətinin, törətdiyi soyqırım və faciələrin hər birinin cavabını aldı. "Böyük Ermənistan" xülyası nəhayət ki, əsrlər sonra XXI əsrdə boşa çıxdı. Ermənistanın vətəndaşına tutduğu divan da meydana çıxdı. İnsanları zorla döyüşməyə vadar etdiklərinin, bunun üçün küçələrdən gəncləri, qadınları, qocaları zorla maşınlara yığılıb cəbhəyə göndərdiklərinin, bütün bunların isə burada yaşayanların etirazına səbəb olduğunun şahidi olduq. Şahidi olduq ki, bu tayfa həqiqətən də yer üzündə görünməmiş vəhşi bir qəbiləymiş. 30 ildə daşı daş üstündə qoymadıqları rayonlarımızda gördük ki, onlar tək insan qatili deyil, həm də o insanların yurdlarının qatili imişlər.





Torpaqlarımız bir-bir azad olduqca, üçrəngli bayrağımız doğma torpaqlarımızda dalğalandıqca Zəfər dalğası ilə düşmənin bağrı çatladı, gözləri kor oldu.

## O apreldən bu aprelə

O apreldən bu aprelə bizi düz altı illik zaman fasiləsi ayırır. 2016-cı ilin apreli, 2022-ci ilin apreli. O apreldən bu aprelədək 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt əməliyyatı, 2020-ci ildə İyul döyüşləri, həmin ilin sentyabrda başlanan Vətən müharibəsi, 44 günlük müharibənin Zəfərlə bitməsi, Qarabağın işğaldan azad olunması və soydaşlarımızın ata-baba yurdlarına qayıtmaları üçün görülən genişmiqyaslı quruculuq və bərpa işləri tariximizin şanlı səhifələrini təşkil edir.

Görünür, ötən zamanın sadalanan hadisələri düşmənin başına bu hadisələr böyüklükdə daş salsa da, pəxilliq və riyakarlıq hisslərinə heç bir təsir göstərməyib. Göstərə də bilməzdi. Çünki bu hisslər onların xislətindədir və tarixin bütün dönəmlərində bu, dəyişməz olaraq qalıb. Vətən müharibəsindən sonra bir neçə dəfə sərhədlərimizdə münaqişə törədən Ermənistan Silahlı Qüvvələri aprelin 12-də yenidən Gorus rayonunun Dığ kəndi istiqamətini atəşə tutmuş, nəticədə üç hərbçimiz şəhid olmuşdur.

Deməli, biz tarixin özünün də xisləti qarşısında məəttəl qaldığı elə bir tayfa ilə qonşuyuq ki, bunlar arın, abır-həyanın, utanmağın nə olduğunu əsla bilmirlər. Öyrənmək isə onların xislətində yoxdur. Bunun əvəzinə digər qonşularından həmişəki kimi yenə də dəstək alıb utanmazcasına sərhədlərimizə atəş açır, nə istədiklərini anlamadan yenə də başqalarının tapşırıqlarına baş əyirlər. Sual olunur, nə vaxtadək? Axı bütün cəhdləriniz boşa çıxır. Heç nəyə nail ola bilmirsiniz. Bunu görmək nə qədər çətindir ki?..

Azərbaycan öz torpaqlarını qorumağa qadirdir. 30 il sonra işğaldan azad etdiyi torpaqları isə göz bəbəyi kimi qoruyur. Biz son nəfərimizədək canımızdan keçərik, lakin bir qarış torpağımızın düşmən əsarətinə keçməsinə razı olmarıq. Bunu düşmən hələ də anlamayıbsa, özündən küssün. Qarşıda onu nələrin gözləyəcəyini düşünsün.

O aprel də, bu aprel də bir abidədir: igidlik, qəhrəmanlıq abidəsi. Zəfərə gedən yolun üzərində olan bu abidə daim qürurla dayanacaqdır. Neçə aprellər sonra da...

***Mətanət Məmmədova***

# "İsrailə qarşı hücumlarının arxasında terrorçu İran molla rejimi dayanır"





*Dr. Mirsamir Məmmədov*

*İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyinin Direktoru*

Açıq-aşkar görünür ki, məkrli İran molla rejimi Qafqaz regionu ilə birgə Yaxın Şərq regionunda da terror və hərbi təxribatlar yaratmağa çalışır. Terrorist İran molla rejiminin diktəsilə Həmas və Hizbullah terror şəbəkəsi tərəfindən İsrailə qarşı raket hücumları və ardıarda terror aktları törədilir. Livan və Qəzza şeridindən İsrailə mülki insanların olduğu yaşayış obyektlərinə inzibati dövlət binalarının yerləşdiyi ərazilərə onlarla raket atılıb. Dəmir Qübbə Hava Hücumundan Müdafiə Sistemləri hər nə qədər atılan raketləri zərərsizləşdirsə də mülki sakinlər günahsız insanlar raket hücumlarından zərər görmüşdür. Təl-Əviv də daxil olmaqla İsrailin bir çox şəhərində xain terrorçular tərəfindən növbəti terror aktları törədilib.

İsrail ərazilərinə qarşı törədilən terror hücumlarında və atılan raketlər nəticəsində mülki sakinlər dinc və sivil insanlar böyük zərər görməkdədir. İsrail dövləti dünyada ən çox terrora məruz qalan ölkədir və yəhudi xalqı terrordan ən çox əziyyət çəkən xalqdır. İsrail dövlətinin mehriban qonşuluq siyasətinə baxmayaraq terror hücumları səngimir və İsrail vətəndaşlarına radikal ərəblər və fələstinli terrorçular tərəfindən mütamadi terror hücumları baş verir.

Açıq-aşkar görünür ki, İsrailə qarşı törədilən bu qanlı terrorların arxasında İranın məkrli və cinayətkar terrorist molla rejimi dayanır. Bütün dünyaya məlumdur ki Hizbullah terror şəbəkəsi İran molla rejimi tərəfindən yaradılıb və Livan əraziləri birbaşa İranın və Hizbullah terrorçularının nəzarətindədir. İsrailə edilən raket hücumları İranın molla rejiminin diktəsilə edilir. Həmçinin Qəzza zolağındakı terrorçular da birbaşa mənfur İran rejiminin nəzarətindədir. İran rejiminin göndərdiyi silahlar və verdiyi maliyyə hesabına silahlanam Həmas və Hizbullah terror quruplaşmaları aktivləşərək hazırda İsrail ərazilərinə qarşı ağır terror hücumları hərbi cinayətlər həyata keçirir. Məkrli və cinayətkar İran molla rejimi cənubi Qafqazda Azərbaycan və Ermənistan sərhədlərində olduğu kimi yaxın Şərqdə də hərbi cinayətlər terror və təxribatlar həyata keçirir. Terror və günahsız insan qətliamı bütün səmavi kitablarda qadağan olunmuş və lənətlənmş bir əməldir. İsraildə baş verən terror aktını və terroru törədən cinayətkarları lənətləyirik.

İsrailin terrorçulara qarşı mübarizə aparmaq ərazi bütövlüyünü və vətəndaşlarını qorumaq haqqı və hüququ vardır. İsrail dövlətinin beynəlxalq qanunlarla özünü müdafiə hüququ var. Həmçinin İsrail dövləti öz ərazisini və vətəndaşlarının təhlükəsizliyini qorumağa borcludur. Bu səbəbdən istənilən hərbi və anti-terror əməliyyatını keçirtmək terrorçuları zərərsizləşdirmək ərazisini və mülki vətəndaşlarını qorumaq İsrail dövlətinin beynəlxalq qanunlarla tənzimlənən hüququdur.

# "Azərbaycan və Qazaxıstan beynəlxalq platformalarda bir-birini müdafiə edir"



"Azərbaycan və Qazaxıstan münasibətləri müstəqillik illərindən sonra artan xətt üzrə inkişaf edib. Hər iki dövlət bütün beynəlxalq platformalarda birbirini müdafiə edib. Həm Müstəqilf Dövlətlər Birliyinin tərkibində, həm də Türk Dövlətləri Təşkilatında hər iki dövlət yüksək səviyyədə təmsil olunmaqdadır. Türk Dövlətləri Təşkilatının təsis edilməsi, mövcud olması və gü-nü-gündən güclənməsində Türkiyə ilə yanaşı, Azərbaycan ilə Qazaxıstanın da misilsiz xidmətləri var. İqtisadi, mədəni, siyasi və sosial sahələrdə münasibətlər getdikcə daha da yaxşılaşır". Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib.

Onun sözlərinə görə, Hökumətlərarası İqtisadi Komissiya mütəmadi olaraq toplantılar keçirir: "Hər iki dövlətə sərmayələrin qoyuluşu ilə bağlı böyük artım var. Yaxın zaman üçün hədəf dövriyyənin 1 milyard dollara çatdırılmasıdır. Heç kəsə sirr deyil ki, 44 günlük Vətən Müharibəsinin gedişində Qazaxıstan Azərbaycanın mövqeyini dəstəkləyib. Bununla da kifayətlənməyən Qazaxıstan Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi və yenidən qurulmasına öz töhfəsini vermək məqsədilə hazırda Füzulidə Uşaq Yaradıcılıq Mərkəzinin tikintisini həyata keçirir. Bu, Qazaxıstan dövlətinin Azərbaycana hörməti kimi dəyərləndirilməlidir".

Deputat sözlərinə davam edərək bildirib ki, ötən il Qazaxıstan Prezidenti Tokayevin Azərbaycana səfəri zamanı imzalanmış sənədlər münasibətləri daha da irəli apardı: "Cənab Prezident İlham Əliyevin Qazaxıstana sonuncu səfəri zamanı əldə edilmiş razılıqlar, imzalanmış sənədlər xüsusilə də Ali Dövlətlərarası Şuranın yaradılması qərarına gəlinməsi onu deməyə imkan verir ki, iki dövlət arasında münasibətlər strateji müttəfiqlik səviyyəsinə çatıb. Bütün sahələr üzrə əməkdaşlığın əldə edilməsi məqsədilə səylər daha da artırılacaq. Ümid edirəm ki, Qazaxıstan və Azərbaycan arasında yaxın dövrdə Şuşa Bəyannaməsinə bərabər bir razılığın əldə olunması mümkün olacaq. Qazaxıstan dövləti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə bir çox tədbirlər həyata keçirib. Qazaxıstanda Ulu Öndərlə bağlı sənədli filmin hazırlanması, oradakı universitetlərin birində Heydər Əliyev auditoriyasının təmir edilib yenidən istifadəyə verilməsi və Astana şəhərində yeni, müasir, geniş bir küçəyə Ulu Öndərin adının verilməsi ona böyük hörmətin nümunəsidir. Yalnız enerji resurslarının daşınması, milli təhlükəsizlik məsələləri deyil, həmçinin qida təhlükəsizliyi məsələlərində də hər iki dövlət arasında çox mühüm razılaşmalar var. Bu razılaşmalar qarşılaşa biləcəyimiz bütün çətinliklərin aradan qaldırılmasında bizə kömək olacaqdır. Ən əsası Orta Dəhlizin inkişaf etdirilməsi, logistik xidmətlərin yüksək səviyyəyə çatdırılması mümkün olacaq. Orta Dəhliz ən təhlükəsiz, ən etibarlı, sürətli və ucuz bir xətt kimi ən qısa zamanda işə düşəcəkdir. Bu isə həm Qazaxıstanın, həm də Azərbaycanın iqtisadi güclənməsi ilə nəticələnəcək".

***Ləman Əlizadə***



İLHAM

# Haramzadalıq ermənilərdə irsidir

Yazılı və şifahi ədəbiyyatımızda yer alan, çöldə, bayırda səslənən hər cür söyüşü, təhqiri, ittihamı ermənilər haqqında yazsam və ya kiməsə ürəyimi boşaltmaq üçün söyləsəm, bəs etməz. Çünki bu üzdəniraq məxluqatlar yaramaz əməlləri, əxlaqsız fəaliyyətləri ilə bunu haqq ediblər, qazanıblar. Qabusnamədə necə də gözəl yazılıb: "Ermənilərin eybi: bədfel, kündə bədən, oğru, gözü götürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş söyən, ürəyi xıltlı, ağasına düşmənçilikdir". İnsanların davranışını, həyat tərzini öyrənən, tədqiq edən mütəxəssislərin gəldikləri qənaətə görə, ilk baxışdan ermənilər formaca adama oxşayırlar, danışdırsan, dindirsən adam kimi suallara cavab verirlər. Çörəyə, suya ehtiyacları olsa, yazıq, müti görkəm alırlar, yaşamağa ehtiyacları olsa, diz çöküb yalvar-yaxar edərlər, hər cür rəzilliyə, miskinliyə düşərlər. Ancaq elə ki, özlərinə yer edib, kimdənsə və nədənsə asılı olmadıqlarını anlayanda iddialı çıxışlar etməyə başlayırlar. Bu baxımdan, ağılı başında olan düz-əməlli insan ermənilərə etibar etmir, onların dilinə, sözlərinə inanmırlar. Bizdə məsəl var, deyərlər, "itlə dostluq et, amma çomağını yerə qoyma". Əslində, məsəl həm də belə deyilməlidir, "erməni ilə yoldaşlıq etsən də, avtomatını yerə qoyma". Hətərən-pətərən etsə, sorğu-sualsız çomağın əvəzinə avtomatın darağını başına boşalt. Zamanında Makrondan fərqli olaraq fransız səyyahı Qraf De Şole demişdir: "Ermənilərin yoxsulluq və əzab-əziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm oyatmasına baxmayaraq, onların haramzadalığı, kələkbazlığı o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilməzdim". Bəli, tarixi şəxsiyyətlər, dahi insanlar ermənilərin kimliyini aydın və açıq şəkildə bütün dünyaya çatdırıblar və çatdırmaqda davam edirlər. Ancaq erməni ki erməni, dünyanın rəyini nəzərə almaq istəmir. Hələ də boyunlarından və başlarından böyük iddialı tələblərlə çıxış edirlər. Ancaq el məsəlidir: "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar". Ermənilər və onların başbilənləri ağıldan kəm iddialarının qurbanı olmaqdadırlar. Bütün qonşu dövlətlərlə münasibətlərini pozublar. Azərbaycanın tarixi ərazisi olan Qarabağa iddiaları onlar üçün ağır nəticələr verməkdədir. Azərbaycanın rəşadətli ordusu sentyabrın 27-dən başlayaraq ermənilərin Qarabağda on mindən çox canlı qüvvəsini, yüzlərlə hərbi texnikasını məhv edib, strateji yüksəklikləri, yaşayış məskənlərini azad edib. Demək olar ki, artıq müharibənin taleyi həll olunub. Az sonra Şuşada, Xankəndidə olacağıq. Azərbaycanın üçrəngli bayrağı işğal altında olmuş, bütün ərazilərimizdə dalğalanacaq. Zaman həqiqətləri güclü silahdır. Bu reallıqları isə hələ də Paşinyan dərk etmir, çünki ermənidir. Bəlkə də başqa millətin nümayəndəsi olsa idi, Azərbaycanın əks-həmlələri qarşısında məğlub olduqlarını etiraf edib, ağ bayraq qaldırardı. Həm də ona görə ki, xalqını qırğına verməsin. Paşinyan isə, Hitler kimi kütləvi insan qırğınlarına əhəmiyyət vermədən, cəbhəyə zor gücünə insanları göndərir. Döyüşməyə adam tapmadığından, xaricdən "PKK"-çıları, "ASALA" terror təşkilatının fəallarını da cəlb edir. Söz yox ki, onlar da Azərbaycan ordusunun zərbəsi ilə məhv ediləcəklər. Bir dəfə yazmışdım ki, əgər Serj Sarkisyanı və Kim Kardaşyanı tutsam, onların işləri çox fəna olacaq. Siyahıya küçə adamı statusu almış Nikol Paşinyanı, "dqr"-in səfeh başçısı Araik Artunyanı və digərlərini də əlavə etmişəm. Rəşadətli Azərbaycan ordusu ərazilərimizi zibillərdən təmizlədikdən sonra, o yerlərə rahatca gedəcəyəm və çalışacağam ki, vədimi yerinə yetirim. Ancaq bir məsələ var ki, hazırkı situasiya onu deməyə əsas verir ki, ermənilərin özləri onları fəlakətə sürükləyən Paşinyanla haqq-hesab çəkməli olacaqlar. Daha doğrusu, bədbəxt gündə olan sadə ermənilər Nikol Paşinyanı və Qarabağa gələrək, müxtəlif pozalarda şəkillər çəkdirərək yayan Anna Akopyanı erməni eşşəyinin belinə tərsinə mindirib, İrəvanın küçələrini gəzdirəcəklər. Təbii ki, sonra da kisənin içinə salıb, dənizə atacaqlar. Bununla da oyuncaq qurum olan Ermənistanda Paşinyan dönəmi bitəcək. A.Artunyanın cəzasını isə yaxın günlərə müzəffər Azərbaycan ordusu verəcək. Onu gizləndiyi zirzəmilərdən birində tapıb, cəhənnəmə vasil edəcəklər. Bundan sonra onlara yenidən dirçəlmələrinə imkan verilməyəcək. Onlar bizim qapazaltımız olaraq həyat sürəcəklər. İsveç səyyahı Adam Mets deyirdi ki, "Dərisi ağ qulların pisi ermənilərdir. Abır-həyaları yoxdur, oğurluqları olduqca məşhurdur. Onlar yalnız döyənək və qorxu altında yaxşı işləyirlər". Bəli, ermənilərə ancaq zopa lazımdır. Sözə baxıb tabe olmadıqda isə, təpəsinə şillə-qapazdan sonra, güllənı vurmaq vacibdir. Necə ki, şanlı Azərbaycan əsgəri bu gün bunu Qarabağda sözə baxmayan ermənilərı məhv etməklə həyata keçirir.

| | | | |
|---|---|---|---|
| **" Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin** | | | |
| **Balans Hesabatı** | | | |
| **31 dekabr 2022-ci il tarixinə** | | | |
| *Azərbaycan Manatı ilə məbləğlər tam məbləğə qədər yuvarlaqlaşdırılıb* | | | |
| | **Qeyd** | **2022** | **2021** |
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Torpaq, tikili və avadanlıqlar | | 2.031.871 | 2.003.195 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | ***2.031.871*** | ***2.003.195*** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | | 590.777 | 502.929 |
| Qısamüddətli debitor borcları | | 579.218 | 560.884 |
| Digər qısamüddətli debitor borclar | | 0 | 980.000 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 2.791.357 | 3.080.822 |
| Sair qısamüddətli aktivlər | | 54.930 | 22.753 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | ***4.016.281*** | ***5.147.389*** |
| **CƏMİ AKTİVLƏR** | | **6.048.152** | **7.150.583** |
| **KAPİTAL** | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 1.903.032 | 1.903.032 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 2.008.855 | 3.110.467 |
| Əlavə kapital | | 2.108.236 | 2.108.236 |
| **CƏMİ KAPİTAL** | | **6.020.123** | **7.121.735** |
| **ÖHDƏLİKLƏR** | | | |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüddətli kreditor borcları | | 6.597 | 8.721 |
| Vergi və sair məcburi ödənişlər üzrə borclar | | 21.432 | 20.127 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | *28.029* | 28.848 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **28.029** | 28.848 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **6.048.152** | 7.150.583 |

| | | | |
|---|---|---|---|
| **" Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin** | | | |
| **MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI (xərclərin xüsusiyyəti üzrə)** | | | |
| **31 dekabr 2022-ci il tarixinə** | | | |
| *Azərbaycan Manatı ilə* | | | |
| | **Qeyd** | **2022** | **2021** |
| Əsas əməliyyat gəliri | | 4.019.312 | 5.281.211 |
| Satışın maya dəyəri | | (497.771) | (472.147) |
| **Ümumi mənfəət** | | **3.521.541** | **4.809.064** |
| Sair əməliyyat gəlirləri | | | 858 |
| Sair əməliyyat xərcləri | | -63 | 0 |
| Maliyyə gəlirləri | | 69.805 | 62.825 |
| Maliyyə xərcləri | | | |
| Ümumi və administrativ xərclər | | (1.409.495) | (1.268.219) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **2.181.788** | **3.604.528** |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **2.181.788** | **3.604.528** |
| Mənfəət vergisi | | **(447.400)** | **(735.782)** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **1.734.388** | **2.868.746** |
| İDARƏ HEYƏTİNİN SƏDRİ | M.SULTANOV | | |
| BAŞ MÜHASİB | X.NOVRUZOVA | | |

| | | |
|---|---|---|
| **" Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin** | | |
| **PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI** | | |
| **31 dekabr 2022-ci il tarixinə** | | |
| | **2022** | **2021** |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Xalis mənfəət /(zərər) | 1.734.388 | 2.868.746 |
| İnvestisiya və maliyyələşmə fəaliyyətində aid olanlar | | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 68.153 | 58.230 |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| Ehtiyatlar üzrə (artım)/azalma | (87.847) | 58.822 |
| Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım)/azalma | (18.334) | 52.207 |
| Digər debitor borclaında (artım)/azalma | 980.000 | (980.000) |
| Sair qısamüddətli aktivlərdə (artım)/azalma | (32.177) | 3.355 |
| Əməliyyat kreditor borclarında artım/(azalma) | (2.124) | 4.448 |
| Vergi və sair məcburi ödənişlər üzrə artım | 1.304 | (218.956) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **2.643.363** | **1.846.852** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli maddi və qeyri maddi aktivlərin əldə edilməsi | (96.830) | (54.050) |
| Əsas vəsaitlərin təqdim edilməsindən gəlir | | |
| Kapiatllaşdırmada olan aktivlərə çəkilmiş xərc | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(96.830)** | **(54.050)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Verilmiş dividendlər | (2.836.000) | |
| Kapital ehtiyyatlarından istifadə | | **(2.636.983)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **(2.836.000)** | **(2.636.983)** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | **(289.467)** | **(844.181)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **3.080.823** | **3.925.004** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **2.791.356** | **3.080.823** |

| | | | | |
|---|---|---|---|---|
| **" Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin** | | | | |
| **KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI** | | | | |
| **31 dekabr 2022-ci il tarixinə** | | | | |
| *Azərbaycan Manatı ilə* | | | | |
| | **Nizamnamə Kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Əlavə kapital ehtiyyatları** | **Cəmi Kapital** |
| **01.01.2021-ci il tarixə qalıq** | **1.903.032** | **2.878.704** | **2.108.236** | **6.889.972** |
| 2021-ci il üzrə xalis mənfəət | | 2.868.746 | | 2.868.746 |
| Verilmiş dvidentlər | | (2.636.983) | | (2.636.983) |
| **31.12.2021-ci il tarixə qalıq** | **1.903.032** | **3.110.467** | **2.108.236** | **7.121.735** |
| 2022-ci il üzrə xalis mənfəət | | 1.734.388 | | 1.734.388 |
| Verilmiş dvidentlər | | (2.836.000) | | (2.836.000) |
| **31.12.2022-ci il tarixə qalıq** | **1.903.032** | **2.008.855** | **2.108.236** | **6.020.123** |
| İDARƏ HEYƏTİNİN SƏDRİ | M.SULTANOV | | | |
| BAŞ MÜHASİB | X.NOVRUZOVA | | | |

**SƏRBƏST AUDİTOR**

**ALIYEV KÖÇƏRİ ƏMRAH OĞLU**

**MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)**

**"Bakı Ağırlaşdırıçılar" ASC-nin İdarə heyətinə**

Mən "**Bakı Ağırlaşdırıcılar**" ASC-nin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti,mənfəət və zərər,məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik ASC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Sərbəst auditor:
Tarix: 09.03.2023

K. Ə. Alıyev

Bakı şəhəri, Nizami küç. 102
Mob: (050) 372 18 53

M.Y.

# HULUSİ KILIÇ:
# "İstəyirik ki, Ermənistan onun-bunun oyuncağı olmasın"



"Ermənistan dövlət ola bilmədi. Biz gözləyirdik ki, o nə vaxtsa dövlət olacaq". Bu sözləri SİA-ya açıqlamasında Türkiyənin ölkəmizdəki keçmiş səfiri, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç deyib.

Onun sözlərinə görə, Ermənistan Azərbaycan münasibətlərinin normallaşması istiqamətində müsbət addımlar atıldığında Ermənistan siyasi və hərbi təxribatlar törədir: "Can Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamaq üçün lazım olan bütün addımları atıb. Lakin Ermənistanın son dəfə 11 Apreldə törətdiyi təxribatlar sülh müddətinə zərər verir. Bu həm də Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasının da qarşısını alır. Çünki Türkiyə hər zaman deyir ki, öncə Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi imzalanacaq, sonra da Türkiyə Ermənistanla münasibətlərini normallaşdıracaq. 1993-cü ildən bəri bağlı olan Ermənistan-Türkiyə sərhədinin açılması və diplomatik əlaqələrin qurulması da Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsinin imzalanmasına bağlıdır".

Hulusi Kılıç sözlərinə belə davam edib: "Bilirik ki, İran 30 ildən çoxdur ki, Ermənistanı dəstəkləyir. Bu bir sirr deyil və hər kəs bilir. İranın bu davranışını anlamaq mümkün deyil. Əgər dindən söhbət gedirsə və İranın da Türkiyə və Azərbaycan kimi bir qonşusu varsa, Azərbaycana yardım etməli idi. Biz istəyirik ki, Ermənistan onun-bunun oyuncağı deyil, real bir dövlət olsun. Atdığı addımlar Ermənistanı dövlət olmaqdan çıxarır. Biz buna kukla dövlət deyirik. Kukla dövlət də ciddi şəkildə davam edən sülh prosesinə zərər verir.

İstəyirik ki, sülh müqaviləsi bağlansın və bölgədə hüzur olsun. Ermənistan ciddi dövlət olsun və Azərbaycanla sülh müqaviləsi imzalasın. Bu halda Türkiyənin də Ermənistanla münasibətləri normallaşacaq. Allah şəhidlərimizə rəhmət etsin. Azərbaycana və şəhidlərin ailələrinə baş sağlığı diləyirəm. Allah bir daha belə günləri bizə yaşatmasın. Yaşasın, Azərbaycan və Türkiyə qardaşlığı!".

***Ayşən Vəli***

TƏRS BAXIŞ+AKTUAL

# Parisin "exprime sa vive pr?occupation" sərsəmiyi



Əslində, bu bəyanat Ermənistana göndərilməliydi

Beləliklə, Fransa yenidən özünün aşkar birtərəfli mövqeyində qaldığını - erməni havadarı olduğunu sübuta yetirdi. Artıq heç bir təəccüb doğurmur bu kimi hallar. Çünki bu həmin Fransadır ki, hakimiyyətində kimlərin olmasına rəğmən, daim Ermənistanın Azərbaycana qarşı aqressiyasına öz hərtərəfli dəstəyini əsirgəməyib. Elə aprelin11-də erməni təxribatı nəticəsində baş vermiş silahlı insidentdən sonrakı bəyanatı da bunu sübut edir. Fansanın XİN-i öz bəyanatında "narahat" olduğunu siyasi artistizmin ən yüksək pikində nümayiş etdirməsi ilə yanaşı, Ermənistanın ərazi bütövlüyünü tanımağa çağırış edib, siyasi həyasızlığa yol verərək, "gələcəkdə baş verə biləcək insidentlərin yaşanmaması, regionda möhkəm sülhün qorunması naminə" Azərbaycan Ordusunu Azərbaycanın (!!!) suveren ərazilərindən çıxmalı olduğunu bildirib.

### Paris əks halda Bakıya qarşı savaşmı açacaq?

Lap deyək ki, Azərbaycan Ermənistanın ərazi bütövlüyünü tanımır (çünki sərhədlər delimitasiya olunmayıb və s.), həmçinin tarixi xəritələrlə bugünkü Ermənistan tarixi Qərbi Azərbaycan torpaqlarıdır. Nə olacaq? Fransa bizə müharibə elan edəcək? Hətta adi sanksiyaları belə qəbul etməyə cürəti çatmayan, uzağı hansısa lazımsız kağızlar üzərində qəbul edilmiş qətnamələr qəbul edən Paris əks halda Bakıya qarşı savaşmı açacaq?

Belə də ki, əgər Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımırsa, Azərbaycan nəyə görə Ermənistanın ərazi bütövlüyünə hörmət qoymalıdır?! Necə deyərlər, salam aleykum nə cür verilirsə, aleykuma salam da o cür cavablandırılır!

### Fransa XİN-nin sözügedən bəyanatı Azərbaycan XİN-nin kabinetləri qarşısındakı tullantı kağızlar üçün qoyulmuş urnaların birindədir

Yoxsa ki, fransızların yalnız Ermənistanın ərazi bütövlüyündən dəm vurmalarına qalanda təbii ki, Azərbaycan da öz sərt mövqeyini bildirir və bildirəcək. Misal üçün, Paris öz bəyanatında həm Ermənistanın, həm də Azərbaycanın ərazi bütövlükləri barədə danışsaydı, qanunsuz erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılmalı olduğunu bəyan etsəydi bax onda bu, olardı ədalətli çağırış. Hazırda isə Fransa XİN-nin sözügedən bəyanatı Azərbaycan XİN-nin kabinetləri qarşısındakı tullantı kağızlar üçün qoyulmuş urnalarının birindədir. Fransa XİN-i bir həqiqəti də dərk etməlidir ki, özünün birtərəfli mövqeyi ilə aprelin 11-də baş vermiş silahlı insident zamanı hər iki tərəfdən həlak olmuşlara görə İrəvan qədər elə Paris də məsuliyyət daşıyır!

### Ona görə də Fransa dərk etməlidir:

1. Bu zonada təmas xətti yoxdur. Qonşu (erməni) tərəfin 30 ildir hörmət etmədiyi dövlət sərhəddi var.

2. Azərbaycan Silahlı Qüvvələrinin "erməni tərəfi"ndən çıxarılması üçün ilk növbədə bu Silahlı Qüvvələr orada olmalıdırlar.

3. Bütün dünya tərəfindən tanınan Azərbaycan ərazilərindən erməni işğalçı qüvvələrinin çıxarılması zəruridir və bu fakt Azərbaycanın ərazi bütövlüyünə göstərilən hörmət prinsipində reallaşdırılmalıdır. O cümlədən, Fransanın da bu mövqedən çıxış etməsi birinci əhəmiyyət daşıyır.

4. Beləliklə, Pari Bakıya göndərdiyi "exprime sa vive pr?occupation" ("işğal vəziyyəti bizi narahat edir") bəyanatını harayasa digər yerə göndərsə daha yaxşı olardı...

*Rövşən RƏSULOV*

# Kimdir oğru?..



MƏTANƏT

Öncə oğrudan deyil, anadan, analıq hissindən söhbət açmaq istəyirəm. Maraqlıdır, görəsən Xətai rayon 3 nömrəli uşaq evinin keçmiş direktoru və müavininin övladları varmı? Varsa, deməli, onlar anadırlar. Özü ana olan bir qadın rəhbərlik etdiyi uşaq müəssisəsində ata-ana qayğısından məhrum olmuş uşaqlarla necə bu cür davrana bilər? Necə onları ət yeməkdən məhrum edə bilər, bu ölkənin bol nemətlərini uşaqlardan gizlədər, Allahın çörəyini əsirgəyib, qurumuş çörəklə onları imtahana çəkər? Dövlət tərəfindən bu müəssisəyə ayrılmış ərzaq bölgüsünü necə gizlədib, uşaqlara cüzi bir hissəsini verə bilər?

Əgər onlar anadırsa, bu uşaqların yarıtox halına, gözlərinin yemək arxasında qalmasına necə göz yuma bilərlər? Evlərində övladlarının qarşısına qoyduqları min bir nemət, təbii ki, o nemətlərin içərisində uşaq evindən daşıdıqları da yer alıb, onların vicdanını heçmi silkələməyib?

Öz övladını sevən, onun bütün qayğılarını düşünən, hər bir arzularını yerinə yetirməyə çalışan, bir istəyini qarşılıqsız qoyanda, bunu reallaşdırmağa imkanı çatmayanda gecələr yuxuları ərşə çəkilən bir ana görəsən uşaq müəssisəsindəki uşaqların vəziyyətini heçmi göz önünə gətirmir?

Bir ana övladına necə şər atıb onu oğurluqda ittiham edə bilər? Bir ana övladını xəstə kimi qələmə verib onu xəstəxanaya necə yatıra bilər? Bəs belə isə bir ana çalışdığı müəssisədəki uşağı necə övladından seçib onu oğurluqda ittiham edə bilər?

Uşaq səhv edə bilər. Evlərimizdə böyütdüyümüz uşaqların heç bir səhvi olmur? Oğurluq da edə bilər, sinif yoldaşları, məhəllə uşaqları ilə dalaşa da bilər. Lakin onun bu səhvini kim aradan qaldırmalıdır, kim ona doğru yolu göstərməlidir. Təbii ki, valideyn, xüsusilə də ana. Belə isə uşaq evinin qadın direktoru və müavini nə üçün tərbiyə etmək əvəzinə, polisə şikayət etdikləri uşağı qarşılarına qoyub tərbiyə etmək fikrində olmayıblar. Nə üçün ona öz övladlarına baxdıqları gözlə baxmaq istəməyiblər? Bu, məsələnin birinci tərəfidir.

İkinci tərəfi isə odur ki, uşaq müəssisəsinin direktor müavini deyir ki, onlardan şikayət edən uşaq təsərrüfat anbarından oğurluq edib. Sual olunur, təsərrüfat anbarının qapısı yoxdurmu? Və yaxud o anbara nəzarət edən təsərrüfat müdirinin başı harada qarışıbmış ki, bu qədər oğurluqdan xəbəri olmayıb? Necə deyərlər, belə bir misal var: qapını bağlı saxla, qonşunu oğru tutma. Bir də ki, uşaq oğurluq edibsə də, onu acılıq buna vadar edib və ya kimlərsə öz oğurluqlarını uşağın üstünə atdıqları şərlə ört-basdır ediblər..

Üçüncüsü, necə olur ki, oğurluq edən də, rəhbərliyi şikayət edən də, psixiatriya xəstəxanasına yerləşdirilən də eyni uşaq olur? Bu üç hadisənin bir-biri ilə bağlılığı elə burada sirli bir məqamın olduğunu ortaya çıxarmırmı?

Ana... Həqiqətən də dünyaya uşaq gətirmək heç də ana olmaq deyilmiş. Bunu uşaq evinin direktoru və müavininin analığı haqqında düşünəndən sonra bir daha təsdiqlədim. Əgər onlar anadırlarsa, sözsüz, elə düşündüyüm analardandır.

Haqq nazilər, lakin üzülməz. Bir də dünya deməkki, hələ ədalətli insanlardan tamamilə xali deyilmiş. 1 nömrəli Respublika Psixiatriya Xəstəxanasının həmin uşağı yoxlayan baş həkimi kimi. Əgər o həkim də ədaləti itirənlərdən olsaydı, uşaq heç cür bəraət ala bilməyəcəkdi.

Uşaq evindəki vəziyyət kədərli olsa da, lakin bu gün bu ünvandakı direktor dəyişikliyi ilə bağlı xeyli sevindik. Çünki ədalət zəfər çaldı. Bu ədalət isə özünə qədər belə bir sual çıxarmışdı meydana: kimdir oğru? Uşaq evinin uşaq olmasına baxmayaraq sözünü açıq deməyi bacaran üsyankar uşağımı, yoxsa uşaqlar üçün dövlətimiz tərəfindən ayrılan ərzağı mənimsəyən rəhbərlikmi? Bunun cavabını həmin qadınlar ətraflı verməlidirlər. Həm uşağı şikayət etdikləri polis bölməsində, həm də sağlam uşağı süründürdükləri Psixiatriya Xəstəxanasında...

# Paytaxt ərazisində ən çox qeydə alınan qayda pozuntusu HANSIDIR?

"Paytaxtda parklanma probleminin mövcud şəraitdə qismən həll ounması üçün sürücülərin baxışı, məsələlərə yanaşma tərzi və ən əsası, məsuliyyəti hissi dəyişməlidir. Sürücü intizamı artmalıdır ki, problemlərdə həll olunsun. Bunun üçün təbliğat və maarifləndirmə işləri mütəmadi formada aparılmalıdır. Vəziyyətin yaratdığı xoşagəlməz halları vətəndaşlara başa salmaq lazımdır ki, yolların hərəkət hissəsində avtomobil saxlamaq yolun keçiciliyinə mənfi təsir edir, insanların vaxtında mənzil başına çatmasına mane olur". Bu sözləri SİA-ya açıqlamasında Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli deyib.

Onun sözlərinə görə, yolun hərəkət hissəsində avtomobil park edən sürücülər öz rahatlığını düşünür, lakin bu zaman həmin yoldan keçən minlərlə insanın həyatını çətinləşdirir: "İnsanların şüurlu olaraq bu tip qayda pozuntularını etməkdən çəkinməsi üçün tədbirlər həyata keçirilməlidir. Bu işdədə elə ən gərgin iş məhz dövlət yol polisinin üzərinə düşür. Biz bunu mütəmadi olaraq edirik. Eyni zamanda, inzibati qanunvericiliyin qayda pozan şəxslər üzərində tətbiqi də həll yollarından biridir. Paytaxt ərazisində ən çox qeydə alınan qayda pozuntularından birincisi də elə məhz dayanma-durma qaydasıdır. Bildiyiniz kimi, son




dövrlərdə də qanunvericiliyə dəyişiklik edildi. Bu dəyişikliyə əsasən, artıq dayanma-durma qaydasının pozulması avtomatik rejimdə tətbiq olunmağa başlayıb. Yəni, xüsusi texniki vasitələrlə elektron qaydada qərarlar avtomotik rejimdə qəbul olunur. Kameradan baxılaraq görüntü götürülür və şəxs məsuliyyətə cəlb olunur".

Araz Əsgərli sözlərinə davam edərək bildirib ki, istər təbliğat-maarifləndirmə işləri, istərsə də inzibati protokolların tətbiqi metodları bu növ qayda pozuntularının yaşanmaması üçün həyata keçirilən tədbirlərin bir hissəsidir: "Daxili İşlər Nazirliyi və onun struktur bölməsi olan Dövlət Yol Polisi tərəfindən bu iki-sindən savayı hansı tədbir görülə bilər ki?! İnsanların parklama imkanlarının artırılması üçün dövlətin aidiyyatı strukturları bu siyasəti həyata keçirirlər. Parklanma üçün yeni yerlərinin artması olduqca zəruri və şəhərsalma prinsiplərinə əsaslanan məsələdir. Bununla bağlı aidiyyatı qurumlarda öz üzərinə düşən işləri görməlidir. Parklanma probleminin dahada dərinləşməməsi üçün tikinti işləri aparılarkən bu məsələyədə nəzarət mexanizmləri güclü olmalıdır. Yeni tikilən binaların ərazisi müəyyənləşdirilərkən parkinq yerlərinin bina sakinlərinin sayına uyğun olması nəzərə alınmalıdır. Yeni yaşayış və iş mərkəzləri harada və və hansı formada tikilməyindən asılı olaraq parklama məsələsində ciddi təhlil olunmalıdır. Amma tikilən binalarda parklanma yerləri kifayət qədər nəzərdə tutulmursa, bu, öz-özlüyündə problemin yaranma səbəblərindən biri kimi illər keçdikcə xüsusəndə avtomobilləşmənin sayı artdıqca problemi dahada qabarıq formada yaşamağımıza səbəb ola bilər. Bir sözlə, yollarda təhlükəsizliyin və nəqliyyatın fasiləsiz hərəkətini görmək istəyiriksə tək inzibati yollarla deyil ictimai nəqliyyat imkanlarını artırmaqla, şəhərsalma normalarına həssaslıqla yanaşmaqla məsələlərə kompleks yanaşmaqla daimi həll yollarını müəyyən etmək olar"

*Ləman Əlizadə*

# Ermənilərin anlamaq problemi

Müharibənin bitməsini bildirən üçtərəfli Bəyanat imzalanan gündən Azərbaycan Ermənistanla münasibətlərin qonşuluq prinsipləri əsasında normallaşması üzərində işlərə başladı. Masaya elə bir sənəd qoydu ki, hər bir normal ölkə bu qədər məğlubiyyət acısı dadmasına rəğmən edilən təklifi geri çevirməz, prosesin tezləşdirilməsi üçün bütün imkanlarını səfərbər edərdi. Antalya Diplomatiya Forumunda Azərbaycanın münaqişədən sonrakı mərhələdə sülh quruculuğu səylərindən bəhs edildi. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində ölkəmiz tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində Ermənistan tərəfindən buna qarşılığın verilmədiyi qeyd edildi. Növbəti addım kimi Azərbaycan iki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təklifi vasitəçilər tərəfindən Ermənistana təqdim etdi.

Münasibətlərin normallaşması üçün aşağıdakı beş baza prinsiplərinə diqqət edək:

- Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;
- Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;
- Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;
- Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;
- Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Amma rəsmi İrəvan hələ də ona sarı uzanan sülh əlini tutmaq istəmir. Əslində heç bir qalib ölkə Azərbaycan kimi davrana bilməz, məğlub etdiyi ölkəyə bu jesti etməz, əksinə onun bir daha ayağa durmaması üçün əlindən gələni edər. 5 baza prinsiplərində qeyd olunanlar Ermənistan və ermənilər üçün mükafat sayılmalıdır. Əvəzində isə İrəvan yenə də suyu bulandırmaqla, revanşa hazırlaşmaqla məşğuldur. İrandan və Hindistandan aldığı silahların növünə baxmaq kifayətdir ki, Ermənistanın niyyətlərini üzə çıxarasan. Laçın rayonu ərazisində Azərbaycan-Ermənistan sərhədində baş verənlər bir daha təsdiq edir ki, bu ölkə ilə sülh dilindən danışmaq hələ tezdir. Azərbaycan nə qədər çalışır ki, ümumiyyətlə regionda sülhü bərqərar etsin, buna baxmayaraq Ermənistan bütün imkanları ilə buna qarşı çıxır.

Gorusun Dığ (Tex) kəndi ərazisində baş verən son insident onu göstərdi ki, Ermənistan rəhbərliyi ilə hərbçilər arasında fikir ayrılıqları var. Dolayısı ilə desək, bu ölkənin baş naziri orduya nəzarət edə bilmir, Paşinyanın qərarları ilə razılaşmayan ordu komandanlığı hələ də demarkasiya olunmamış sərhəddə başqa ölkələrin diqtəsi və birbaşa göstərişi ilə təxribatlar törədirlər. Paşinyan sülh istədiyini deyir, amma üstündən az bir vaxt keçəndən sonra vəziyyət gərginləşir, atışma, ölüm-itim baş verir. Baş nazir isə bu dəfə hadisəyə başqa don geydirməyə məcbur olur. Bir sözlə Azərbaycanın sülhə dəvət etdiyi Ermənistanda çoxhakimiyyətlilikdir. İrəvan həm də kənar dövlətlərin təzyiqi altında olduğuna görə müstəqil siyasət yürüdə bilmir. İlk baxışdan elə görünür ki, guya İrəvan balanslı siyasət yürüdür, maraqlı dövlətlərin hər biri ilə ayrıca oyun qurur, nəticəsini isə öz maraqlarına uyğun əldə edir. Təbii ki, bu yanlış düşüncədir. Ermənistan həm onun bütün mənalarda himayə edən Rusiya, həm ona nəfəslik verən İran, həm də ona uğurlu gələcək vəd edən Avropa qarşısında çox ağır şərtlərə söykənən öhdəlikləri var. Bir sözlə, Ermənistanın müstəqil siyasət yürütmək, addım atmaq səlahiyyəti yoxdur, şans limiti tükənib.



Bir el misalı var, "itə deyirlər niyə hürürsən, deyir qorxuduram. Deyirlər bəs quyruğun niyə əsir, deyir özüm qorxuram". Ermənistanın mütəmadi olaraq təxribatlar törətməsi qorxutmaq istəyindən irəli gəlir. İndi isə baş nazir başda olmaqla quyruqlarını əsdirə-əsdirə beynəlxalq təşkilatlardan, dövlətlərdən yardım istəyirlər. Üstəlik, məsələyə münasibətləri də şantaj, yalan üstündə qurulur. Paşinyan bütün hallarda və dönəmlərdə Azərbaycana uduzduğunu artıq qismən də olsa dərk etdiyindən məsələnin həllinə heç kimin gözləmədiyi tərəfdən yanaşmaq istəyir. Qeyd edir ki, "səylərimizə baxmayaraq, Ermənistan və Azərbaycan sərhədində yerləşən Dığ (Tex) kəndi ərazisində prosesi gərginləşdirmədən həyata keçirmək mümkün olmayıb. Aprelin 11-də bu ərazidə növbəti təxribat törədilib, nəticədə Ermənistan Silahlı Qüvvələrinin 4 hərbi qulluqçusu şəhid olub".

Paşinyan adəti üzrə baş vermiş toqquşmada günahı yenə Azərbaycanın üzərinə qoymağa çalışıb və bunun 2022-ci il oktyabrın 6-da Praqada və 31 oktyabr 2022-ci ildə Soçidə verilən bəyanatlara zidd olduğunu deyib. Bildirib ki, "Aİ-nin bəyanatına ehtiyac var. 1991-ci il sərhədinə hörmətlə yanaşmaq lazımdır və bu cür insidentlərin təkrarlanmasının qarşısını almaq üçün hər iki tərəfin qüvvələri bu xəttdən təhlükəsiz məsafəyə çəkilməlidir. Biz Alma-Ata Bəyannaməsinə uyğun olaraq 1991-ci ildən etibarən Ermənistanla Azərbaycan arasındakı sərhəd xəttinin bütün uzunluğunda belə hərəkətlərə hazırıq". Paşinyan deyəsən, başına yumruq dəyməsə ağıllanmır. Baş nazir bəyan edib ki, Ermənistan əvvəllər qeyd olunan prinsiplər əsasında regionda iqtisadi və nəqliyyat kommunikasiyalarını açmağa, həmçinin Praqa və Soçidə əldə olunmuş razılaşmalar əsasında sərhədlərin delimitasiyasına hazırdır.

Belə çıxır ki, erməni tərəfi Azərbaycanın təkliflərini anlamaqda çətinlik çəkir. Halbuki, təklif Ermənistan rəhbərliyinin anlayacağı bütün dillərdə yazılıb və aidiyyəti ünvanlara çatdırılıb. Azərbaycan hazırladığı rəsmi sənədlərdə bütün konvensiyaların, bəyannamələrin müvafiq bəndlərinə istinadlar və bu mövqedən çıxış etmək təklifləri öz əksini tapıb. Ermənistan isə "quyruğu qapı arasında qalmayana" qədər bunu görməzdən gəlir.



Ermənistanın "Mənim şərəfim var" parlament fraksiyasının katibi Tiqran Abramyan isə deyib ki, hakimiyyətin yeganə məqsədi tənqidi mümkün qədər özlərindən yayındırmaq və günahı başqalarının üzərinə yıxmaqdır. O sual edib ki, siyasi qərar hansı məqsədlə verilib və MTN sərhəd qoşunlarının komandanı tutduğu vəzifədən niyə azad edilib. 44 günlük müharibə və ondan sonrakı dövrdə olduğu kimi, siyasi hakimiyyət "məsuliyyətli" adamlar çevrəsi formalaşdıraraq, onları tez bir zamanda işdən çıxarır, bəziləri barəsində hüquqi prosesə başlayır. Yeganə məqsəd tənqidin hədəfini yayındırmaqdır. Fraksiya katibi əmin olduğunu bildirib ki, Dığ (Tex) kəndi ərazisində törədilən təxribat və erməni hərbçilər arasında yeni itkilər Paşinyan hakimiyyətin günahı ucbatından baş verib: "Bu gün Ermənistan Parlamentində müdafiə nazirinin müavini və "Mülki müqavilə" fraksiyasının iki deputatı ilə mübahisə baş verdi və onlar məni dünən Dığ (Tex) kəndində baş verən insidentin heç bir hadisə olmadığına inandırmağa çalışdılar. Hakimiyyətdəkiləri birləşdirən bir yanaşma var, o da mövzudan kilometrlərlə uzaqda olmaq, bəhanələr axtarmaq.

Müxalifətçi deputat qeyd edib ki, bütün bunlar siyasi hakimiyyətə bəraət qazandırmaq, məsuliyyəti məhkəmə hökmü olmadan başqalarının üzərinə yıxmaq üçün köşkdənpavilyona, mikrofondan mikrofona qaçan hakimiyyət sıralarından xüsusi seçilmiş iyrənc şəxslərin fəal təbliğatı ilə müşayiət olunur. Hakimiyyət isə öz xalqına qarşı düşmənçilik edir, onu məhvə aparır.

Amma bu təxrbatların arxasında kim durur, sualına cavab hələ də yoxdur. Yəni dəqiq olaraq hansısa dövlətin, yaxun beynəlxalq təşkilatın ünvanını göstərmək çətinlik törədir. Yalnız əldə olunmuş müəyyən nəticələrdən sonra bu suala da cavab tapmaq asanlaşır. Rusiyanı, İranı, ABŞ və Aİ-ni bu gərginlikdə suçlamaq olar. Ermənistana hər cür dəstək göstərən Fransanı isə şübhəlilərin ən önünə qoya bilərik. Bəli, buna əsaslarımız da var.

Fransa növbəti dəfə ənənəvi ermənipərəst mövqedən çıxış edib. Belə ki, bu ölkənin Xarici İşlər Nazirliyi 11 apreldə Laçın istiqamətində ermənilərin təxribatı nəticəsində yaranan insidentlə bağlı Azərbaycana qarşı yalan və əsassız məqamların əks olunduğu bəyanat yayıb. Bəzi məqamlara diqqət edək. Əvvəla, Fransa tərəfləri delimitasiya prosesini dəstəkləməyə çağırıb. O cümlədən Ermənistanın "ərazi bütövlüyünə hörmət" və Azərbaycana qoşunlarını "işğal olunmuş mövqelər"dən çıxarılmasını "vacib" hesab edib. Fransanı hardasa başa düşmək olardı, əgər 25 ilə yaxın ATƏT-in Minsk qrupunun həmsədri olmasaydı və münaqişənin tarixcəsindən bixəbər olsaydı. Gər ki, Paris kimin kim olduğunu yaxşı bilir, kimin işğalçı, kiminin də işğala məruz qaldığını anlamaq, qanmaq iqtidarındadır. Məgər Fransa Azərbaycan torpaqlarını işğal edən dövlətin Ermənistan olduğunu, 20 faiz ərazilərimizin erməni silahlı qüvvələri tərəfindən ələ keçirildiyini, bir milyondan artıq vətəndaşımızın erməni hücumları nəticəsində öz yurdundan məcburən köçmək zorunda qaldığını bilmirdi? Makronlu Fransa Dığ kəndi yaxınlığında baş verən təxribatların tərəflərdən hansının törətdiyini də yaxşı bilir. Amma "suyu bulandıranın" dostu, qardaşı, "kiçik bacısı" olduğu üçün səsini kəsməyə məcburdur. Amma nə vaxta qədər?

Ermənilərin anlamaq, qanmaq, dərk etmək kimi probleminin olduğunu bir el məsəlində gözəl təsvir ediblər. Bunu ermənilərin oxuması məsləhətdir. Deyir, bir kişinin bostanına qonşu erməni dadanır, qarpız-yemişləri gecə qaranlığında oğurlayıb evinə aparır. Ev yiyəsi nə qədər deyirsə, xəbərdarlıq edirsə, şapalaqlayırsa erməniyə bir təsiri olmur. Bu arada kişinin bostanına bir ayı da girir. Kişi də eləmə tənbəllik ayının qulağının dibinə bir şapalaq ilişdirir. Ayını həmin gündən sonra bostanında görmür. Erməni yenə oğurluğa gələndə kişi ona: "Ayı bir şapalaqdan sonra qandı, sən hələ də qanmırsan". Vəssalam.

**V.VƏLİYEV**

# İsveç NATO-nun 32-ci üzvü olacaqmı?

**2023-cü ilin iyulunda NATO-nun sammitinin keçirilməsi planlaşdırılıb və Türkiyə son ana qədər öz tələblərini İsveç qarşısında qaldırıb və mümkündür ki, sammitə qədər Stokholm qismən də olsa Ankaranın tələblərinin bir qismini yerinə yetirməli olacaq**




Bu yaxınlarda Finlandiya rəsmi şəkildə NATO-nun üzvü seçildi. Beləliklə, Helsinki bu hərbi alyansın 31-ci üzvünə çevrildi. Lakin Finlandiyadan fərqli olaraq Stokholm Helsinki ilə birlikdə bu alyansa daxil ola bilmədi - buna Türkiyə və Macarıstan mane oldu. İndi bir sıra dairələri bir sual düşündürür: İsveç NATO-nun 32-ci üzvünə çevrilə biləcəkmi? Belə ki, İsveç məhz Türkiyənin müsbət cavabını gözləyir, çünki Stokholm Ankaraya vəd verib ki, Türkiyənin təhlükəsizliyinə sadiq qalacaq və s. Amma sonradan nə baş verdi? Ulf Kristerssonun hökuməti ultra-sağçı ekstremist Rasmus Paludanın Türkiyənin Stokholmdakı səfirliyi qarşısında müsəlmanların müqəddəs kitabı Quranın yandırılmasına rəsmi icazə verdi.



### Quran yandırıldı və İsveçin NATO-ya üzvlüyü dalana dirəndi

İsveç hökuməti digər tərəfdən də Türkiyənin siyasi maraqlarına qarşı susqunluğunu nümayiş etdirib. Belə ki, PKK tərəfdarlarının Stokholmun mərkəzində Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanın müqəvvasını asmaları qırmızı xəttin keçilməsi kimi anlaşıldı. "İsveçin məhkəmə sistemi bu məsələ ilə bağlı öz qərarını verdi. Heç bir qanunsuzluq halı müəyyən olunmayıb", deyə ölkənin rəsmi dirələri məlumat verdilər. Nəticədə isə gözlənilən baş verdi - İsveçin NATO-ya üzvlüyü dalana dirəndi.

Təbii ki, bütün bunların müqabilində Ərdoğanın cavabı bəlli idi - Türkiyə Finlandiyanın NATO-ya daxil olmasına yaşıl işıq yandırdı, İsveç isə bu dəstəyini itirdi. Üstəlik, Stokholm NATO-ya üzv olmayan yeganə Şimali Avropa ölkəsi kimi qaldı. İsveçin quru sərhədindəki qonşuları NATO üzvüdürlər. Lakin bildirilir ki, İsveçin alyansa üzvlüyü bu qurumun digər üzvləri tərəfindən əhəmiyyət kəsb edir. Ən azı, İsveç NATO üzvü olsa Avropanın şimalı bütünlüklə bir yerdə cəmləşəcək.



Lakin Türkiyə İsveçin alyansa daxil olmasını əngəlləyir, belə ki, İsveç Türkiyə tərəfindən terrorçu təşkilat elan edilmiş PKK-nın üzvlərini geniş şəkildə dəstəkləməkdədir.

### İsveç anlamalıdır ki, alyansa üzv olması üçün Ankara ilə arasında olan bütün narazılıqları aradan qaldırmalıdır

Ancaq Türkiyə ilə yanaşı, Macarıstan da Ankaranın mövqeyindən çıxış edir. Budapeşt bəyan edir ki, Ankara ilə qurduğu strateji partnyorluqla yanaşı, Türkiyə NATO dövlətidir və İsveç anlamalıdır ki, alyansa üzv olması üçün Ankara ilə arasında olan bütün narazılıqları aradan qaldırmalıdır.

Xatırladaq ki, Ankara daha əvvəl dayandırılmış Türkiyə-İsveç-Finlandiya üçtərəfli danışıqlarını martın 9-da Brüsseldə bərpa etdi. Ardınca isə Finlandiyanın müraciəti İsveçdən ayrılaraq qəbul olundu. Türkiyə İsveçdən PKK ilə əlaqəli olan şəxslərin ona təhvil verilməsini istədi. Lakin Stikholm bildirdi ki, onların ekstradisiyaları məhkəmələrin nəzarəti altındadır və İsveçin müstəqil məhkəmə sisteminə müdaxilə yolverilməzdir. Ardınca isə Türkiyənin 51 yaşlı İsveç vətəndaşı və PKK üzvü Mehmet Zakir Karaelin Ankaraya təhvil verilməsi tələbi də yerinə yetirilməmiş qaldı, İsveç hökuməti həmin tələbi rədd etdi.

### Yens Stoltenberq: "Biz bütün gücümüzü ortaya qoymuşuq ki, həmin proses daha tez baş versin"

Maraqlıdır ki, NATO-nun baş katibi Yens Stoltenberq İsveçin alyansa qəbul edilməsi prosesinin dalana dirənmədiyini iddia edib. "Biz müxtəlif səviyyələrdə işləməyə davam edirik ki, İsveçin NATO üzvü olması məsələsində tərəqqi əldə edək. Biz bütün gücümüzü ortaya qoymuşuq ki, həmin proses daha tez baş versin", deyə o bildirib.

ABŞ prezidenti Co Bayden də Türkiyə ilə Macarıstanı İsveçin NATO-ya üzv olması istiqamətində müsbət məramlarla davranmağa dəvət edib və prosesin gecikdirilməsinin alyansa səmərə vermədiyini bildirib.

Qeyd edək ki, 2023-cü ilin iyulunda NATO-nun sammitinin keçirilməsi planlaşdırılıb və Türkiyə son ana qədər öz tələblərini İsveç qarşısında qaldırıb və mümkündür ki, sammitə qədər Stokholm qismən də olsa Ankaranın tələblərinin bir qismini yerinə yetirməli olacaq. Daha dəqiq desək, konkret addımlar atmaqla müəyyən fikir ayrılıqlarının aradan qaldırılmasında maraqlı olduğunu nümayiş etdirəcək.

***Rövşən RƏSULOV***

---



Elçin Bayramlı

# Təhsildə əcaib eksperimentlərə son qoyulmalıdır!

### Problem nə müəllimlərdə, nə də şagirdlərdədir, problemin kökündə təhsil nazirliyi və valideynlər dayanır

Elm və Təhsil Nazirliyinin tətbiq etdiyi eksperimentlər, kurikulum adı ilə, "şagirdyönümlü təhsil proqramı" adı ilə tətbiq olunan naməlum sistem məktəblərdə tamamilə anarxiya və özbaşınalıq yaradıb. Digər tərəfdən valideynlər övladlarını tərbiyələndirmək xüsusiyyətini itirgidib. Psixoloqların təbliğatına görə, "Uşaqlara tərbiyə vermək lazım deyil, uşaqdır nə istəsə edə bilər" ilə uşaq hər şeyin mərkəzinə gətirilib. Heç bir tənbeh, cəza görməyən uşaqlar tamamilə qudurğan, harın, tərbiyəsiz hərəkətlər edirlər. Məktəblərdə baş verən insidentlərin 99 faizi uşaqların tərbiyəsiz hərəkətləri ilə bağlıdır.

Müəllimlər artıq bu kimi hallardan cana yığılıb. Onların əsəbləri dəmirdən deyil. Onlarla tərbiyəsiz uşağı idarə etmək çətindir. Müəllimlərin demək olar ki, səlahiyyətləri tamamilə əllərindən alınıb. Əvvəllər müəllimlər və təhsil müəssisələri təhsillə yanaşı tərbiyə də verirdi. Lakin hazırda onların tərbiyə etmək səlahiyyətləri yoxdur, onlar sadəcə təhsil verməklə məşğul ola bilərlər.

Uşaqlar isə öz növbəsində bu kimi fürsətlərdən istifadə edir. Artıq onlar bilirlər ki, müəllim onlara bu hərəkətlərinin qarşılığında heç nə deyə bilməyəcək. Uşaqların tərbiyəsiz davranışlarına qarşı müəllim tərəfindən görülən tənbehin sonu isə müəllimin cəzalandırılması, bəzən də onun işini itirməsi ilə nəticələnir. Buna görə də, bir çox müəllim bu kimi hallarında qarşısında səsini çıxara bilmir.

Mediada və sosial şəbəkələrdə mövzu ilə bağlı yazılarıma və çıxışlarıma gələn şərhlərdə müəllimlər görmədiyimiz daha dəhşətli faktların olduğunu yazırlar. Biz sadəcə işıqlandırılan, yayımlanan hadisələri görürük. Hazırda vəziyyət çox acınacaqlıdır. Bunun nəticəsi olaraq, tərbiyəsiz, qudurğan, özbaşına bir kütlə yetişdirilir. Onlar öz ailələrində ala bilmədikləri tərbiyəni məktəbdə nümayiş etdirirlər. Bu hallar valideynlərin uşaqlarına verdiyi "tərbiyə"nin məktəblərdəki inikasıdır. Onların mədəniyyət səviyyəsinin uşaqlar tərəfindən nümayişidir.

Bu məsələlər çox dərindir və uzun illər aparılmış "islahatların" nəticəsidir. Bəzi QHT-lərin nümayəndələri uşaqlara, onların hər cür hüquqlarının olduğunu, onlara heç kimin heç nə deyə bilməyəcəyini aşılayırlar. Onlara "istədiyinizi edə bilərsiniz, müəllim kimdir ki, sizə nəsə desin" tipli məlumatlar verirlər.

Sanki bu prosesləri həyata keçirmək üçün xüsusi şərait yaradılıb. Aparılan "islahatlar" nəticəsində müəllimlər tamamilə sındırılıb, onlara lazımsız əşya statusu verilib. Texniki prosedura uyğun olaraq, müəllim dərsini keçib, getməlidir. Uşaqlar istədikləri hərəkəti edə bilər, istədiyi sözü deyə bilər. Hətta sinif ortasında porno videolara baxa bilər. İrad tutan müəllimə cavab qaytarıb onu hədələyə bilər ki, belə hallar hazırda var. Bütün bunların qaşılığında müəllim heç nə deyə bilmir. Bəzi gənc qadın müəllimlər yuxarı sinif oğlanlardan qorxurlar, çünki onların cibindən bıçaq çıxır.

Elm və Təhsil Nazirliyi sanki qarşısına məqsəd qoyub- köhnə müəllimləri bütün mümkün vasitələrlə məktəbdən uzaqlaşdırmaq, didərgin salmaq. Guya köhnə müəllimlər bu yeni eybəcər proqramı həyata keçirməyə mane olurlarmış. Bəli, əslində də beləidr- köhnə müəllimlər həyata keçirilən müasir zərərli hoqqabazlıqları qəbul edə bilmirlər. Zaman da göstərdi ki, onlar haqlıdırlar.

Hazırda vəziyyət daha da pisə doğru gedir, uşaqlar zombiləşir, köhnə ənənələrə sadiq müəllimlər təhsil sferasından uzaqlaşdırılır. Kişi müəllimlərin məktəblərdən yoxa çıxması da xeyli əlavə problem yaradıb. Hazırkı vəziyyətdə yaxın gələcəyi təsəvvür etmək o qədər də çətin deyil. Belə biabırçı hallara son qoyulmalıdır. Aparılan eksperimentlər dayandırılmalı, məktəblərin, müəllimlərin tərbiyə səlahiyyətləri bərpa edilməlidir.

Müəllimlərlə yanaşı, valideynlər də uşaqlara tərbiyə verməlidir. Belə yanaşmalar dəyişdirilməli, uşaqların tərbiyələndirmə üsulları üzərində iş görülməlidir. Tərbiyəsiz təhsil gələcəkdə kriminal ünsürlərin sayını olduqca artacaq, cəmiyyətdə mənəvi deqredasiya daha da sürətlənəcək. Biz hazırda bunu müşahidə edirik. Uşaqların çantalarını ağır kitablarla doldurub onların qəddini əymləklə nəsə əldə etmək olmur. Problemlərə kompleks şəkildə yanaşılmalı, fundamental şəkildə həll olunmalıdır.

Nazirlik bu sahədəki neqativ hallarla bağlı heç bir addım atmır. Əksinə, ağır dərs yükü ilə uşaqların psixologiyasını pozur. Başa düşməliyik ki, biz insan yetişdirməliyik, beyinləri müxtəlif biliklərlə doldurulan zombilər yox. Bizə tərbiyə görməmiş zombilər lazım deyil. Müasir təhsil sistemi isə bundan tamamilə kənardır. Tətbiq edilən hər bir qayda, hər bir yenilik ancaq zərər vurmaqla məşğuldur. Bu halların davamı yaxşı nəticələr vermiyəcək.

Nə valideynlər səsini çıxarmır, nə də nazirlik tərəfindən heç bir tədbir görülmür. Ortada yeganə müəllimlər qalır, onlar da bunu bacarmır. Bəziləri işini itirməkdən qorxur, bəziləri əsəb xəstəsi olur, dərmanlarla yaşayır. Eyni zamanda, biz tərbiyədən əlavə olaraq, təhsil də verə bilmirik. Orta məktəblərin təhsil göstəriciləri biabır həddədir. Hətta 150-200 balla, yəni 5 ballı şkala üzrə 1-2 qiymətlə universitetlərə daxil olma səviyyəsinə qədər enmişik. Savadsız kütlənin ali məktəblərə daxil olunması prosesi dərinləşir və sabah bu ölkəni savadsız kütlə idarə edəcək. Təhlükənin fərqindəsinizmi?

# Xəyanətkarlığın, satqınlığın, ruhu çöküşün bu qədəri olmaz axı

**Son zamanlar "siyasi mühacir" adı ilə xarici ölkələrdə sığınacaq tapan "sapı özümüzdən olan baltalar"ın, informasiya müharibəsində düşmən dəyirmanına su tökən antimilli ünsürlərin xeyli fəallaşması diqqətimizi cəlb edir. Belələrindən biri xalqına, Vətəninə qarşı xəyanətkar əməlləri ilə məşhuri-cahan olan Tural Sadıqlıdır. T.Sadıqlının son vaxtlar sosial şəbəkələrdəki əmamməliyi bir daha onu göstərir ki, deyəsən, xarici xwsusixidmət orqanları, xüsusilə də SEPAH bu adamı yaxşıca yedizdirirlər.**








Belə yerdə sual oluna bilər ki, görəsən, Tehranın Azərbaycana bağlı təxribatçı əməllərinin əsas icraçılarından olan bu terrorçu təşkilat T.Sadıqlıya və onun kimi Vətəninə xəyanət edənlərə nə vəd edib ki, belələri dəridənqabıqdan çıxaraq molla rejiminə var gücləri ilə dəstək verirlər?

Mənəviyyatını pula-paraya satan, ruhunu şeytana, daha doğrusu, SEPAH-a təslim edən xəyanətkarlar arasında xüsusi cənfəşanlığı ilə seçilən T.Sadıqlıdan düşmənlərimiz çox məharətlə istifadə edirlər.

Heç kimə sirr deyil ki, ayətullahkratiya Azərbaycandan İrana dini təhsil almağa gedən gəncləri öz cənginə keçirərək onlardan casus kimi istifadə edir. Digər tərəfdən, onlar ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq ölkəmizdə özlərinin "mədəniyyət mərkəzləri", yəni, yerli casus yuvalarını yaradaraq gənclərimizin beynini çox pis şəkildə yuyurlar. Yeri gəlmişkən, bu günlərdə İran səfirliyinin "persona-non-grata" elan edilən dörd diplomatından biri Qurbanəli Purmərcan Varcovi İranın Bakıdakı mədəniyyət mərkəzinin sədridir. Q.Purmərcan 2021-ci ildə Azərbaycandan qaçan dini təbliğatçı, İranın ali dini lideri Xameneinin Azərbaycandakı nümayəndəsi Seyid Əli Əkbər Ocaqnejadın yerinə keçmiş və hələ də onun ölkədəki yarım qalan işlərini davam etdirirdi.

Əlbəttə ki, mollakratiya ölkəmizə qarşı törətdiyi təxribatlarda xarici ölkələrdəki casus şəbəkəsinin üzvlərindən də, necə deyərlər, çox məharətlə istifadə edir. Belələrindən biri də özünü azərabaycanlı adlandıran, Vətənin havasını udub, çörəyi ilə böyüyən xəyanətkar T.Sadıqlıdır.

Son zamanlar bu adamın işi-gücü gecə-gündüz bir neçə gün bundan əvvəl Milli Məclisin deputatı Fazil Mustafaya qarşı törədilən terror hadisəsində hər cidd-cəhdlə terrorçu mahiyyətli İranın rolunu gizlətmək və burada hansısa "iz" axtararaq molla rejimini təmizə çıxarmaqdır. Nə deyəsən, necə deyəsən? Hərdən fikirləşirsən ki, görəsən, şeytan xislətli bu əbləhdə öz Vətəninə, torpağına və millətinə qarşı bu qədər kin-küdurət haradandır? Təsəvvür etmək belə çətindir.

Mənəvi-əxlaqi deqradasiyaya uğrayan, beş-on quruş tula payına görə xarici xüsusi xidmət orqanlarının tapşırığı ilə sosial şəbəkə platformalarında özü kimi milli satqınlarla birlikdə Azərbaycan əleyhinə şər-böhtan, iftiralar yağdıran T.Sadıqlı bundan əvvəl də Azərbaycanın İrandakı səfirliyinə qarşı həyata keçirilən terror hücumu ilə bağlı Tehran hökumətinin mövqeyindən çıxış edib. O, həmin günlərdə "YouTube"dakı bütün çıxışlarında xüsusi cənfəşanlıqla ictimai rəyi çaşdırmaq üçün çox iyrənc və çirkin mövqe nümayiş etdirib. Bu mənəviyyatsız, vicdanı ləkəli adam özünün "Azad söz" kanalında həyasızcasına terrorçuların mövqeyini müdafiə etdi. Bütün bunlar bir daha təsdiq edir ki, anti-Azərbaycan dairələr ölkəmizə qarşı informasiya mübarizəsi aparmaq üçün T.Sadıqlı kimi xəyanətkarın rəhbəri olduğu "Azad söz" kanalından bir platforma kimi istifadə edirlər.

Əslində, T.Sadıqlı və onun kimilərin anti-Azərbaycan dairələrin əlində maşa olduğunu hamımız yaxşı bilirik. Ancaq bir azərbaycanlı kimi hamımızı düşündürən bir məsələ var: Xəyanətkarlığın, satqınlığın, əxlaqi-mənəvi deqradasiyasnın, ruhu çöküşün və nankorluğun bu qədəri də olmaz axı

***Zahid Rza***

---

# Ad və soyadı necə dəyişmək olar?

*QURUM RƏSMİSİ AÇIQLADI*

**"Ad insanı geniş insan kütləsi arasında, o cümlədən mülki hüquq münasibətlərində fərdiləşdirilən bir vasitədir. Tarixən insanlara anadan olduqları vaxtdan müəyyən ad verilir və həmin şəxs bu ad altında yaşayıb fəaliyyət göstərir. Adsız fəaliyyət göstərən şəxs olur, lakin adsız insan olmur". Bu sözləri SİA-nın sorğusuna cavab olaraq Bakı şəhəri Xəzər rayon qeydiyyat şöbəsinin rəisi Nigar Bağırova deyib.**

Onun sözlərinə görə, mülki qanunvericiliyə görə ad məfhumu şəxsin adı ilə yanaşı onun soyadını və atasının adını da əhatə edir: "Şəxsin adı bu üç göstərici ilə ifadə olunur. Hər bir fiziki şəxs mülki hüquq münasibətlərinə girmək üçün öz adından müəyyən müqavilə bağlayır, əmlakını öz adından satır, bağışlayır, vəsiyyət edir və s.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 26-cı maddəsində qeyd edilir ki, hər bir fiziki şəxsin adı ad, soyad və ata adından ibarətdir. Ailə məcəlləsində uşağa ad və soyadın verilməsi valideynlərin razılığı əsasında həll edilməlidir. Ola bilər ki, uşağa ad və soyad verilməsində valideynlər arasında fikir ayrılığı olsun. Belə olduqda məsələ qəyyumluq və himayə orqanı tərəfindən həll olunur. Ailə məcəlləsinin müvafiq maddəsində yazılır ki, uşağın ad və soyadının dəyişdirilməsi ilə bağlı valideynlərinin birgə xahişinə əsasən bu məsələ yerli İcra Hakimiyyəti orqanı tərəfindən həll oluna bilər".

Nigar Bağırova sözlərinə davam edərək bildirib ki, adın, soyadın, ata adının verilməsi və dəyişdirilməsi Nazirlər Kabinetinin müvafiq qərarı ilə tənzimlənir: "Bu qərara görə uşağın mənafeyinə xələl gətirəcək, cinsinə uyğun gəlməyən, gülünc adların verilməsi ilə bağlı məhdudiyyətlər qoyulub. Bu məhdudiyyətlərin tətbiqi Azərbaycan ədəbi dil normalarına uyğun olmayan adların qoyulmasının qarşısını almağa imkan verir.

Qeydiyyat şöbəsinin hüququ və vəzifələrindən biri də müraciət edən valideynlərə uşaqları üçün seçilən adların izahını və tövsiyələrini verməkdir. Ədliyyə Nazirliyinin rəsmi saytındakı elektron xidmətlər bölməsində valideynlərə uşaqlarına ad seçilməsində kömək məqsədilə Azərbaycan adları, onların mənşəyi və izahı, əhali arasında yayılma səviyyəsi və sair informasiya almaq üçün axtarış sistemi mövcuddur.




Aparılan maarifləndirmə və təbliğat işlərinə baxmayaraq, Azərbaycanda bəzi valideynlər yeni doğulan uşaqlara qəribə adlar qoymağa davam edirlər. Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq uşağın mənafeyinə xələl gətirən, cinsə uyğun olmayan gülünc adları qoymaq olmaz.

Ad, soyad və ya ata adını dəyişdikdən sonra o, mütləq yenidən müvafiq qurumlara müraciət edərək sənədlərini yeniləməlidir. Bunun üçün ən asan və rahat üsul Asan Xidmətə müraciət etməkdir. Bir çox dövlət qurumunun xidmətləri Asan Xidmətdə mövcud olduğuna görə, vətəndaşlar haqqındakı bir çox hüquqi sənədi burada yeniləyə bilər.

Yeni qanun layihəyəsinə əsasən, ərizə əsasında adın, ata adının və soyadın dəyişdirilməsi vətəndaşın seçdiyi, məhkəmə qətnaməsi əsasında dəyişdirilməsi isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınacaq.

Adın, ata adının və soyadın dəyişdirilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə Ədliyyə Nazirliyinin müvafiq informasiya sisteminə ötürüləcək. Qanun adın, ata adının, soyadın dəyişdirilməsinə müəyyən hallarda icazə vermir. Belə ki,ərizə verən şəxs cinayət mühakimə icraatına şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb edildiyi dövrdə, şəxsin götürülməmiş və ya ödənilməmiş məhkumluğu, barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş olduqda adın, ata adının və soyadın dəyişdirilməsinə yol verilmir".

***Ləman Əlizadə***

## Bakıda qadını gözəllik salonunda öldürdülər

Bakıda gözəllik salonunda qadın qətlə yetirilib. Bu barədə SİA-ya DİN mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, dünən saat 12:40 radələrində paytaxtın Binəqədi rayonu Rəsulzadə qəsəbəsində gözəllik salonlarından birində 1986-cı il təvəllüdlü Aygün Qərib qızı Yusifovanın kəsici-deşici alətlə qətlə yetirilməsi barədə polisə məlumat daxil olub.

Qeyd edilib ki, cinayət əməlini şəxsi münasibətlər zəminində törətməkdə şübhəli bilinən qadının həyat yoldaşı 1980-ci il təvəllüdlü İsrafil Dursun oğlu Yusifov polisə gələrək təslim olub. Araşdırma aparılır.



# Həyat yoldaşınızın anası, yoxsa sevgilisisiniz?

**Evlilik həyatı enişli-yoxuşlu bir macəradır. Həyat yoldaşlarının bir-birlərinə olan sevgi, məhəbbət və diqqət ehtiyaclarını qarşılamaq üçün bu səfərdə qadınların ərlərinə göstərdikləri sevgi dilini düzgün seçmələri lazımdır. Bəzi qadınlar var ki, yoldaşına sanki onun anası kimi davranır. Bir növ onun üçün ana rolunu alır. Bu, nə dərəcədə düzgündür? Ailə münasibətlərinə necə təsir edir?**

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Qadının ərinə qarşı ana və həddən artıq himayədar olması, yoldaşına öz övladı kimi davranması münasibəti korlayır.

### Ərinizin anası olmayın

Qadınlar instinktiv olaraq analıq hisslərini uşaqlıqdan hiss etməyə başlayırlar. Bəzi qadınlar təbiətcə daha çox analıq edirlər. Belə ki, onlar sosial həyatlarında hər kəsin köməyinə gəlir, mehriban və fədakardırlar. Bəzi qadınlar isə ailə qurub ana olduqdan sonra kişinin həyat yoldaşı olmaq əvəzinə bunu ana roluna çevirir. Kişilər isə həyat yoldaşlarının anaları kimi qoruyucu, qayğıkeş və mehriban olmasından əziyyət çəkirlər. Bu yaxşı bir hal deyil.

Kişi arvadına baxanda görür ki, yuxu kimi başlayan evlilik, sevgi dolu sözlər, romantika bitib. Nəticədə kişi həyat yoldaşını ilk vaxtlar aşiq olduğu qadın kimi deyil, anası kimi görməyə başlayır. Evliliyində axtardığı sevgi və məhəbbəti tapa bilməyən bir kişi isə başqa qadınlara gedə bilər.



Qadının unutmamalı olduğu şey, ərinin artıq anası olmamasıdır. Əgər həyat yoldaşınızın sizə olan sevgisinin bitməsini istəmirsinizsə, evliliyinizi yaxşı qidalandırmalısınız. Əlbəttə ki, həyat yoldaşınıza olan sevginizi və ya evlilikdə bəyənmədiyiniz şeyləri ifadə etməlisiniz. Amma bunu edərkən yanaşmanız ana kimi yox, qadın (sevgili) kimi olmalıdır.

### Bəs, necə olmalıdır?

Uzunmüddətli və sevgi dolu bir evliliyin açarı düzgün ünsiyyətdir. Heç vaxt unutma ki, partnyorunuzun sevgili kimi sevəcək bir tərəfdaşa ehtiyacı var.

- Danışarkən, əmr edən, mühakimə edən, ana övladı ilə danışan kimi hesablaşan söz və rəftarlardan çəkinin.
- Ünsiyyət qurarkən gülümsəyin. Həyat yoldaşınıza sevgi ilə yanaşın, amma şişirtməyin.
- Ünsiyyəti gücləndirməyin başqa bir yolu minnətdarlıq sözləridir. Minnətdarlıq sözləri sevgini qidalandırır.

### Ərlərinizin anaları var

Qadınlar bilməlidirlər ki, ərlərinin anası var və ikinci bir anaya ehtiyac yoxdur. Ona görə də qadınlar evlilik həyəcanının və hisslərinin bitməsini istəmirlərsə, həyat yoldaşlarına analıqdan çox, əsl həyat yoldaşı kimi davranmalıdırlar. Unutmayın ki, partnyorunuza sevgi duyğusu lazımdır. Halbuki sizdən gözlənilən sevgi ana sevgisi deyil, bir xanımın verə biləcəyi sevgidir. Ünsiyyətinizdə çox diqqətli olmağa çalışın. Danışmaqdan, sərt təxribatlardan və məsuliyyət tələb etməkdən çəkinin.

Klinik psixoloq, psixoterapevt, seksoloq Təhmasib Cavadzadə: "İlk olaraq xanımların ailə həyatında etdiyi səhvlərdən danışmaq istəyirəm. Bəzən ailədə qadın o qədər yoldaşının qayğısına qalır ki, artıq kişinin düşüncəsində ana obrazına çevrilir. Ana obrazına çevrildikdən sonra da avtomatik olaraq kişinin həyat yoldaşı və məşuqə (sevgili) obrazından çıxır. Bu da münasibətdə təbii ki, soyuqluq yaradacaq. Sonra da kişi başlayacaq özünə yeni məşuqə axtarmağa.

Xanımlar şikayət edir ki, "Mən yoldaşımın bu qədər qayğısına qalıram, onun üçün hər şey edirəm, amma yenə də başqası ilə münasibət qurur". Burada səhv odur ki, sən onun üçün hər şey edirsən. Kişinin qayğısına qalmaq lazımdır, amma qədərində. Bu hədd o qədər olmamalıdır ki, kişi öz həyat yoldaşını anası kimi görsün. Kişilərin düşüncəsində həyat yoldaşı ana obrazına çevrilməməli, məşuqə və xanım obrazında qalmalıdır. Məsələn, əri ana da harasa yola salır, sevgili də. Lakin, ana bunu onun qayğısına qalaraq edir. Həyat yoldaşı isə qapıda öpüşüb yola salmalıdır. Yəni, aradakı fərq bilinməlidir. Ərə "Onu geyin, bunu geyin" deməyə ehtiyac yoxdur. Ər zatən böyük insandır və bunları özü bilir.

Çox qayğıya qalmaq ona gətirib çıxarır ki, yəni insan özünü kimdənsə asılı bilir və daim gözləyir ki, onun qayğısına qalsınlar. Beləliklə də insan böyümür. Şəxsiyyət uşaq olaraq qalır. Həmçinin görə də evdəki sevgili artıq qayğıkeş ana obrazında olur. Ər isə çöldə digər qadınlarla şıltaqlıq edir.

Belə hallar münasibəti soyudur. Yəni, kişi artıq ehtiras ilə yoldaşına baxa bilmir. Sonra da istədiyi və arzuladığı sevgili obrazını axtarır. Qadın isə düşünür ki, bunları etsə, əri onu daha çox sevəcək".

***Ayşən Vəli***

# 6 transformator oğurlayanlar tutulub

**Dəmir yolları xəttinin Qaradağ rayonu Səngəçal-Qobustan mənzilinin 67-ci kilometrliyində quraşdırılan ümumilikdə 6 ədəd drossel-transformator naməlum şəraitdə oğurlanıb.**

DİN-dən SİA-ya verilən məlumata görə, hadisə barədə məlumat daxil olan kimi Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinin və Biləcəri Xətt Polis Şöbəsinin əməkdaşları tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib. Nəticədə hadisəni törətməkdə şübhəli bilinən 3 nəfər - əvvəllər məhkum olunmuş Böyükağa Hüseynov, onun qohumları - Elçin Ağayev və Şükür Salmanov növbəti dəfə transformatorları oğurlamaq istəyən zaman Qobustan qəsəbəsi ərazisində maddi sübutlarla birlikdə saxlanılıblar.



Onlardan oğurladıqları transformatorların bir hissəsi və hadisə zamanı istifadə etdikləri avadanlıqlar aşkar edilərək götürülüb. Saxlanılan şəxslər ifadələrində digər transformatorları hissələrə ayıraraq Səbail rayonu Bayıl qəsəbəsində yerləşən əlvan metal qəbulu məntəqələrindən birinə satdıqlarını bildiriblər.

Qeyd edilib ki, dəstə üzvlərinin oğurladıqları drossel-transformatorları dəmir yollarında qatarların hərəkətinin nizamlanması zamanı istifadə edilən işıqforların fəaliyyətini tənzimləyən əsas elektrik qidalandırıcıdır. Bu hadisə nəticəsində dəstə üzvləri dəmir yolları təsərrüfatına 10 min manata yaxın maddi ziyan vurublar. Faktla bağlı Dəmiryolu Nəqliyyatında Polis İdarəsinin Biləcəri Xətt Polis Şöbəsində araşdırmalar davam etdirilir.

## BAŞSAĞLIĞI

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının (Şəhər, Qəsəbə və Kənd) rəhbərliyi və əməkdaşları Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədova atası

**Elmaz Məmmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**